Təsisçi: Daşkəsən Rayon İcra Hakimiyyəti və qəzetin jurnalist kollektivi

Qəzet 1933-cü ildən çıxır | № 7 (5820) | Oktyabr-noyabr 2018-ci il | Qiyməti 60 qəpik

PREZİDENT İLHAM ƏLİYEV: "AZƏRBAYCAN XALQI VƏ DÖVLƏTİ HEÇ VAXT İŞĞALLA BARIŞMAYACAQ".

Biz hamımız yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, əsrlər boyu belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr, xaos nəticəsində Ermənistan xarici dəstəklə bizim torpaqlarımızın bir hissəsini işğal edib. Ancaq iki il bundan əvvəl biz nümayiş etdirdik ki, torpaqlarımızı hərbi yolla azad edə bilərik və etdik də. Bu il Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan istiqamətində apardığımız uğurlu əməliyyat nəticəsində on min hektardan çox ərazi, o cümlədən strateji əhəmiyyət daşıyan yüksəkliklər bizim nəzarətimizə keçdi. Biz indi strateji kommunikasiyalara, yollara, o cümlədən Ermənistan ərazisindəki yollara, Dağlıq Qarabağa gedən kommunikasiyalara tam nəzarət edirik. Yəni, bütün bu amillər onu göstərir ki, bizim iradəmiz də, gücümüz də var.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
AĞDAM RAYONU, 5 NOYABR 2018-Cİ İL

DAŞKƏSƏN RAYONU 2018-Cİ İLİN DOQQUZ AYINI UĞURLA BAŞA VURMUŞDUR

Oktyabrın 16-da Daşkəsən rayonunda 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon yığıncağı keçirilib. Daşkəsən Rayon İcra Hakimiyyətinin inzibati binasında keçirilən yığıncaqda rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, RİHB-nin inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri, ictimaiyyət nümayəndələri və KİV mənsubları iştirak ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev yığıncağı giriş sözü ilə açaraq hesabat məruzəsi ilə çıxış edib. O, məruzəsində deyib:

- Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin son on beş il ərzində uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edib, əhalinin rifahı yüksəlib, xüsusilə ölkəmizdəki sabitlik, sürətli inkişaf və beynəlxalq miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artıb, yeni-yeni nailiyyətlər, qələbələr qazanılıb. Ölkəmiz regionda lider dövlətə çevrilmişdir.

Azərbaycan xalqının 2018-ci ilin 11 aprel Prezident seçkilərində seçimi son on beş ildə cənab Prezident İlham Əliyevin uğurlu siyasətinə, ölkədə inkişaf və tərəqqiyə verilən qiymətin bariz təzahürüdür (seçkilərdə ölkə vətəndaşlarının 74,3 faizi iştirak etmiş, onlardan 86,02 faizi cənab İlham Əliyevin namizədliyini dəstəkləmiş, səs vermişlər).

Aprelin 11-də keçirilmiş Prezident seçkisi bir çox beynəlxalq təşkilatlar və müşahidəçilər tərəfindən yüksək qiymətləndirilmiş və iqtidarın demokratiya, qanunun aliliyi, insan hüquqlarına hörmət, hüquqi demokratik dövlətin əsaslarını möhkəmləndirilməsi kursunun dəyişməzliyinə sədaqətini əyani şəkildə nümayiş etdirmişdir.

Prezident seçkilərində daşkəsənlilər xüsusi fəallıq göstərmiş, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, müstəqil Azərbaycan Respublikasını işıqlı gələcəyə aparan cənab İlham Əliyevə sevgilərini bir daha nümayiş etdirərək seçkidə iştirak etmiş seçicilərin 85,56 faizi səs vermişdir.

2018-ci ilin doqquz ayı da əvvəlki aylar kimi sosial-iqtisadi cəhətdən respublikamız üçün uğurlu dövrlərdən biri olmuşdur.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə oktyabrın 9-da Prezident sarayında, Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında doqquz ayın sosial-iqtisadi inkişafı geniş təhlil edilərək, qarşıda duran vəzifələr göstərilmişdir.

Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu daxili və xarici siyasət, həyata keçirilən tədbirlər nəticəsində 2018-ci ilin doqquz ayında da Azərbaycan Respublikasında dinamik inkişaf davam etmiş, beynəlxalq aləmdə ölkəmizin nüfuzu daha da artmış, mövqeləri daha da möhkəmlənmişdir.

Möhtərəm Prezident cənab İlham Əliyev iclası giriş nitqi ilə açmışdır.

O demişdir: "Bu gün biz ilin 9 ayının yekunlarını müzakirə edəcəyik, ilin sonuna qədər görüləcək işlər haqqında danışacağıq. Deməliyəm ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır.

Bugünkü dünyada vəziyyəti nəzərə alsaq, deməliyik ki, bu gün sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Azərbaycanda isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır, eyni zamanda, xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır.

Dünyada və xüsusilə yaşadığımız bölgədə vəziyyət gərgin olaraq qalır, yeni qarşıdurma, münaqişə ocaqları yaranır. Əvvəlki illərdə yaranmış gərgin vəziyyət, əfsuslar olsun ki, aradan qaldırılmır. Belə olan vəziyyətdə biz əlbəttə ki, özümüzü mümkün olan xarici risklərdən daha da ciddi qorumalıyıq və qoruyuruq.

Bir daha qeyd etmək istəyirəm, Azərbaycanda daxili risklər mənbəyi yoxdur və biz öz siyasətimizlə, görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqının rahat həyatını təmin edirik və edəcəyik.

Əlbəttə, bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir.

Eyni zamanda, 2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Hesab edirəm, bu ilin doqquz ayının göstəriciləri deməyə əsas verir ki, biz istədiyimizə nail oluruq.

İqtisadi göstəricilərə gəldikdə isə deməliyəm ki, bu ilin doqquz ayında bizim iqtisadiyyatımız, yəni, ümumi daxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir.

Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir.

İnflyasiya cəmi 2,6 faizdir, əhalinin gəlirləri isə 9,5 faizdir. Yəni, gəlirlər inflyasiyanı üstələyir. İnflyasiyanın aşağı səviyyədə olması, il ərzində daha da düşməsi göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir və makroiqtisadi vəziyyət möhkəmdir.

Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur. Sevindirici hal ondan ibarətdir ki, bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna qoyulub. Bu, iqtisadiyyatımızın bundan sonra da şaxələndirilməsinə xidmət göstərəcəkdir.

Valyuta ehtiyatlarımız artır. Bu gün bizim valyuta ehtiyatlarımız 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri biz əlavə 3 milyard dollar yığmışıq. Bu, bir daha onu göstərir ki, biz öz vəsaitimizə böyük qənaətlə yanaşırıq. Həm ölkə qarşısında duran vacib məsələləri həll edirik, investisiya layihələrini, infrastruktur layihələrini icra edirik, sosial məsələlərin həllini təmin edirik, eyni zamanda, ehtiyatlarımızı da artırırıq və əminəm ki, ilin sonuna qədər daha da artacaq. Bu, bizim bundan sonra da uğurlu inkişafımız üçün çox önəmli amildir.

Doqquz ayda xarici ticarət dövriyyəsi 37 faiz artıb. İxrac da təxminən bir o qədər artıb. Bu da çox müsbət haldır. Qeyri-neft ixracı isə təxminən 14 faiz artıb. Hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Bu ilin doqquz ayında ölkəmizdə 85 min daimi iş yeri açılmışdır.

Bax, budur, sosial-iqtisadi inkişafımızın əsas göstəriciləri. İstənilən mötəbər beynəlxalq maliyyə qurumu bu nəticələri görərkən bir qənaətə gələ bilər ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur. Sadəcə olaraq, biz

gərək bu sahədə öz islahatlarımızı davam etdirək. Bu barədə bu gün danışılacaq ki, öz iqtisadi potensialımızdan maksimum istifadə edə bilək”.

Respublikamızın digər rayonlarında olduğu kimi Daşkəsən rayonunda da 2018-ci ilin doqquz ayı ərzində bir çox uğurlu işlər və nailiyyətlər əldə olunmuşdur. Belə ki, iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən müxtəlif sahələr üzrə xeyli artmışdır. Rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür və hazırda da həmin işlər davam etdirilməkdədir.

Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən “Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin həyata keçirilməsində son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhərinin çox hissəsi (90,7%) ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur.

Möhtərəm Prezident cənab İlham Əliyev “Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2754 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” sərəncam imzalamış, həmin sərəncama əsasən Daşkəsən şəhəri Alunitdağ qəsəbəsinin içməli su ilə təminatını yaxşılaşdırılması nəzərdə tutulan yaşayış məntəqələrinin siyahısına əlavə olunmuş və həmin sahə üzrə müəyyən işlər görülmüşdür.

Xoşbulaq kənd həkim məntəqəsində təmir işləri aparılmışdır.

Güneykənd kənd tam və Şahvəlidi kənd ümumi orta məktəblərində yeni modul tipli məktəb binalarının quraşdırılmasında son tamamlama işləri görülür. Daşkəsən qəsəbə, Almalı və Gurbulaq kənd ümumi orta məktəblərində isə modul tipli məktəb binalarının quraşdırılması işləri davam etdirilir.

15 sentyabr 2018-ci il tarixdən Mərkəzləşdirilmiş Kitabxana Sistemində cari təmir işlərinə başlanılmışdır.

Daşkəsən şəhərində 7 çoxmərtəbəli yaşayış binasının təmiri, eyni zamanda Daşkəsən şəhərində tikinti-təmir, abadlıq işləri, o cümlədən istinad divarlarının təmir işlərinə başlanılmış və hazırda həmin işlər davam etdirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində, Qabaqtəpə və Dəvrallı kəndlərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 4 fərdi yaşayış evinin və Fövqəladə Hallar Nazirliyinin xətti ilə Alunitdağ və Yuxarı Daşkəsən qəsəbələrində və Quşçu kəndində evləri qəza vəziyyətində olan vətəndaşlar üçün 3 fərdi yaşayış evinin tikintisinə başlanılmışdır.

Kommunal Müəssisələr Kombinatının maddi texniki bazası möhkəmləndirilmiş, lakin şəhərin kənar küçələrinin təmizlənməsi, şəhərdən tullantıların yığılaraq daşınması və zərərsizləşdirilməsi sahəsində aidiyyəti üzrə əlavə tədbirlər görülməsinə ehtiyac vardır.

Novruz bayramı ərəfəsində Heydər Əliyev Fondunun hesabına Daşkəsən rayonu ərazisində yaşayan 422 aztəminatlı ailəyə, Qurban bayramında isə 289 ailəyə bayram sovqatları verilmişdir. Eyni zamanda 60 nəfərdən çox 1-ci sinfə gedən şagird məktəbli ləvazimat dəsti ilə təmin edilmişdir.

Doqquz ay ərzində rayon ərazisində bir sıra mədəni-kütləvi tədbirlər keçirilmişdir.

Daşkəsən şəhərinin Heydər Əliyev meydanında 16 mart 2018-ci il tarixdə qədim, milli bayramımız olan Novruz bayramı minlərlə rayon sakininin iştirakı ilə yüksək səviyyədə keçirilmiş, rayon ərazisində olan “N” saylı hərbi hissənin əsgərlərinə bayram sovqatları verilmişdir.

2017-2018-ci tədris ilində rayonun ümumtəhsil məktəblərinin IX sinifdə təhsil alan 269 şagirddən 243-ü ümumi orta təhsil haqqında attestat və XI siniflər üzrə isə 188 şagirdin hər biri tam orta təhsil haqqında attestat almışdır. Onlardan 2 nəfər IX sinif üzrə, 8 nəfər isə XI sinif üzrə fərqlənmə attestatına layiq görülmüşdür. Rayonun orta məktəb məzunlarından 95 nəfəri respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunmaq üçün ərizə vermişdi. Onlardan 55 nəfəri ölkənin müxtəlif nüfuzlu ali, 17 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunmuşlar. Ali məktəblərə qəbul olunan məzunlarımızdan 1 nəfəri 600-dən, 8 nəfəri isə 500-dən yuxarı bal toplamışdır. Bu nəticə ötən illərlə müqayisədə ürəkaçandır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiyalara start verilmiş, Daşkəsən rayonundan 40 nəfər məktəbli “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası çərçivəsində 26-29 mart 2018-ci il tarixlərdə Qəbələ-Şəki-Zaqatala marşrutunun iştirakçıları olmuşlar.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli, 118 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilmişdir. Dövlət Proqramının tədbirlər planında Daşkəsən rayonuna aid 25 tədbir nəzərdə tutulmuşdur. Bu tədbirlərin 5-i ölkə əhəmiyyətli, 3-ü Gəncə-Qazax iqtisadi rayonu və 17-si isə Daşkəsən rayonu bölmələrində qeyd edilmişdir.

Cari ilin yanvar ayının 29-da möhtərəm Prezident cənab İlham Əliyevin iştirakı ilə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilmişdir. Möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən konfransda cənab Prezidentimizin giriş və yekun nitqlərində Dövlət Proqramının icrası barədə hərtərəfli məlumat verilərək, perspektivlər müəyyənləşdirilmiş, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr vermişdir. Hazırda həmin istiqamətdə müvafiq işlər görülür.

Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən cari ilin keçən dövrü ərzində rayona özəl investisiyaların cəlb olunması sahəsində bir sıra işlər görülmüşdür. Rayona investisiya cəlb olunması məqsədilə ərazidə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, sənaye, energetika, tikinti, ticarət, nəqliyyat, telekommunikasiya və poçt, maliyyə və bank, turizm və digər xidmət sahələri üzrə mövcud vəziyyət, məlumatlar kütləvi informasiya vasitələri ilə hərtərəfli təşviq olunmuşdur. İş adamları, sahibkarlar və aidiyyəti qurumlarla birgə investisiyaların qoyulması, müvafiq layihələrin işlənib hazırlanması məsələləri geniş təhlil edilərək tətbiq olunması daha məqsədəuyğun olan təkliflər müəyyənləşdirilərək, özəl investisiya qoyuluşu üzrə investisiya qoymaq istəyən hüquqi və fiziki şəxslərə lazımi köməklik göstərilməklə əlverişli şərait yaradılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müasir siyasi və iqtisadi idarəetmə metodlarının vəhdəti şəklində həyata keçirilən dayanıqlı islahatlar kursunun prioritetlərindən biri kimi son illər ölkəmizdə biznes və investisiya mühitinin təkmilləşdirilməsi prosesində böyük nailiyyətlərə imza atılır. Bu istiqamətdə sərgilənən siyasi iradənin məntiqi nəticəsi kimi respublikamızın yerli və xarici sahibkarlar üçün əlverişli məkana çevrilməsi dünya birliyi tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilməklə Azərbaycanı bir daha beynəlxalq miqyasda qabaqcıl inkişaf modelinə sahib olan bir ölkə kimi tanıtmaqdadır.

Görülmüş tədbirlərin davamı kimi dövlət başçısının “Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” 2017-ci il 28 dekabr tarixli Fərmanına əsasən Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaradılması digər sahələr kimi bu sektorda da dövlət idarəçiliyinin təkmilləşdirilməsinə əlverişli zəmin yaratmaqla ölkədə investisiya və biznes mühitinin daha da yaxşılaşdırılmasına, xüsusilə özəl sektorun mühüm hissəsini təşkil edən kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətliliyinin artırılmasına verilən dövlət təminatının etibarlılığını daha da gücləndirmişdir.

Mövcud müsbət tendensiya eyni zamanda, dövlətin bu sahədə fəaliyyətinə kölgə sala biləcək neqativ hallara, o cümlədən korrupsiya hüquqpozmalarına qarşı mübarizənin kəsərliliyinin artırılmasını da aktual məsələyə çevirir. Qeyd edilən zərurətdən irəli gələrək, Agentliyin digər dövlət qurumları ilə qarşılıqlı əməkdaşlığının qurulması çərçivəsində cari il oktyabrın 9-da Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında hər iki qurumun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında sahibkarların hüquqlarının müdafiəsi sahəsində əməkdaşlığa və qarşılıqlı fəaliyyət göstərilməsinə dair Anlaşma Memorandumunun imzalanması mərasimi baş tutmuşdur. Tədbiri giriş sözü ilə açan Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev ilk növbədə iki qurum arasında imzalanan əməkdaşlıq memorandumunun əhəmiyyətinə toxunaraq dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə reallaşdırılan siyasi, iqtisadi və institusional islahatların maliyyə intizamının gücləndirilməsi, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsində dövlət orqanları və digər qurumlarla əməkdaşlığın əhəmiyyətini vurğulamışdır. K.Əliyev hazırkı sənədin imzalanmasının istər tərəflər arasında sahibkarlığın inkişafına əngəl törədə biləcək korrupsiya hüquqpozmalarının aşkar edilməsi və araşdırılması, istərsə də başqa əməkdaşlıq istiqamətləri kontekstindən əvəzsiz rola malik olduğunu bildirmiş, yeni sazişin cəmiyyətin və dövlətin maraqlarına xidmət edəcəyindən əminliyini ifadə etmişdir.

Həmçinin, çıxışında sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin daha da gücləndirilməsi ilə bağlı Prezident cənab İlham Əliyevin Nazirlər Kabinetinin 8 iyul 2018-ci il tarixli iclası zamanı verdiyi göstəriş və tapşırıqları xatırladan K.Əliyev bu mühüm sahədə tərəflərin qanunla müəyyən edilmiş tələblər səviyyəsində qurulacaq birgə fəaliyyətinin dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrasına ciddi töhfə verəcəyini vurğulamışdır.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov çıxış edərək, ölkəmizdə kiçik və orta biznesin inkişafını stimullaşdıran tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması və dövlət-sahibkar münasibətlərinin institutsionallaşdırılması kimi mühüm komponentləri əhatə edən əlverişli hüquqi zəmin və sağlam iqtisadi mühit yaradılmasının sevindirici hal olduğunu qeyd etmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən mütərəqqi sosial-iqtisadi və hüquqi islahatlar çərçivəsində rəhbəri olduğu qurum qarşısında olduqca mühüm vəzifələr qoyulduğunu bəyan edən Orxan Məmmədov agentlik tərəfindən ölkədə kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, onlara müvafiq xidmətlərin göstərilməsi, habelə dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsinin və tənzimlənməsinin həyata keçirilməsi zamanı qarşıya çıxa biləcək hər növ qanun pozuntularının qarşısının alınması yönündə Baş İdarə, eləcə də digər aidiyyəti dövlət qurumları ilə əməkdaşlığın bu sahənin inkişafına xidmət edəcəyini vurğulamış, birgə fəaliyyət yönümlü əlaqələrin daha da genişləndirilməsi üçün bütün səylərin səfərbər ediləcəyini bildirmişdir.

19 iyun 2018-ci il tarixdən 03 iyul 2018-ci il tarixədək “ASAN xidmət” Daşkəsən rayonunda səyyar olaraq xidmət göstərmişdir. “ASAN xidmət”in xidmətlərindən 1075 nəfər yararlanmışdır. “ASAN xidmət”in xidmətlərindən istifadə edən Daşkəsən rayon sakinləri onlara göstərdiyi diqqət və qayğıya görə ölkə başçısı möhtərəm cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi İnkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda demişdir: ”Ərzaq təhlükəsizliyi məsələləri daim diqqət mərkəzindədir. Son illərdə bu istiqamətdə irəliləyiş var, amma hələ ki, bizi tam qane edə bilməz. Ona görə bu məsələyə xüsusi diqqət göstərilməlidir. Deməli, biz kənd təsərrüfatının ənənəvi olan və müəyyən dərəcədə unudulmuş texniki sahəsini inkişaf etdirməyə o vaxt başlamışıq ki, ərzaq təhlükəsizliyi məsələlərinə güclü təkan verildi. Ancaq biz yenə də bu məsələ ilə bağlı çox ciddi işləməliyik”.

Rayonda 3 kartofçuluq üzrə toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Toxumçuluq təsərrüfatlarının artırılması üçün işlər davam etdirilir. Cari ilin keçən dövrü ərzində rayon ərazisində 305 hektar sahədə buğda, 59 hektar sahədə arpa, 1200 hektar sahədə kartof, 59 hektar sahədə kələm, 66 hektar sahədə lobya, 101 hektar sahədə yonca və 45 hektar sahədə tərəvəz əkilmişdir. Əkilmiş sahələrdən 763 ton buğda, 118 ton arpa, 11020 ton kartof, 950 ton kələm, 172 ton lobya, 6 ton tərəvəz məhsulu götürülmüşdür.

Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalama texnikləri tərəfindən 2018-ci ilin 9 ayı ərzində 223 baş heyvan süni mayalandırılmışdır. Mayalandırılmış heyvanlardan 105 baş bala alınmışdır.

Qeyd etmək lazımdır ki, rayonda torpaqlardan təyinatı üzrə istifadəyə görə müəyyən nöqsanlar mövcuddur. Həmin nöqsanların aradan qaldırılması üçün müvafiq lazımi tədbirlər görülməlidir. Rayonun aidiyyəti üzrə qurumları bu sahədə bütün lazımı tədbirləri yerinə yetirməlidirlər. Xüsusilə Daşkəsən Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Azər Hacıyev inzibati ərazi dairəsi üzrə nümayəndələr, bələdiyyələr ilə birgə torpaqlardan təyinatı üzrə səmərəli istifadə edilməsi istiqamətində ciddi tədbirlər görməli, mövcud nöqsanları tez bir zamanda aradan qaldırmalıdır.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin tapşırığı ilə 2018-ci ilin fevral ayının 10-dan 11 may 2018-ci il tarixə kimi ölkədə əhalinin sağlamlığını təmin etmək üçün tibbi müayinə günü təşkil edilmişdir. Həmin tapşırığa əsasən Daşkəsən rayon mərkəzi xəstəxanasında müntəzəm olaraq əhali qrafik əsasında tibbi müayinədən keçmişlər. 49 yaşayış məntəqəsinin əhalisi və rayonun idarə, müəssisə və təşkilatların işçiləri tibbi müayinədən keçirilmişdir. Bu müddət ərzində 22051 nəfər tibbi müayinədən keçmiş, 114 nəfər müxtəlif xəstəliklərdən ixtisaslaşmış tibb müəssisəsinə göndərilmiş, 142 nəfər Daşkəsən rayon mərkəzi xəstəxanasının stasionar müalicəsinə cəlb olunmuş, 401 nəfərə isə ambulator müalicəyə yazılmışdır. Tibbi müayinədən keçən Daşkəsən rayon sakinləri onların sağlamlığına göstərdiyi diqqət və qayğıya görə ölkə başçısı möhtərəm cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.

Bildiyiniz kimi, Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən 2013-cü ildə 53 bənddən ibarət olan “Yeni Daşkəsən” layihəsi elmi əsaslarla işlənib hazırlanmışdır. Daşkəsənin hərtərəfli sosial-iqtisadi inkişafı, kənd təsərrüfatının mövcud vəziyyəti, ayrı-ayrı sektorlarının - heyvandarlığın, arıçılığın, kartofçuluğun, toxumçuluğun, həmçinin turizmin inkişafı, yeni inzibati binaların, korpusların inşası, su, qaz, elektrik təchizatı, yol və körpülərin salınması məsələsi, ən əsası isə yeni iş yerlərinin açılıb işsizliyin aradan qaldırılması, sahibkarlara münbit şərait yaradılması, mövcud problemlərin həlli, o cümlədən də Daşkəsən şəhəri “Daşkəsən Filizsaflaşdırma” Açıq Səhmdar Cəmiyyətinin bazasında yaradılmasını əsas götürülərək “Daşkəsən Filizsaflaşdırma” ASC-nin, eləcə də “Alunit” İstehsalat sahəsinin yenidən işləməsinin müasir səviyyədə təmin olunması layihədə əsas vəzifə kimi qarşıya qoyulmuşdur. “Daşkəsən Filizsaflaşdırma” ASC-nin və “Alunit” İstehsalat sahəsinin müasir texniki avadanlıqlarla təchiz edilərək müasir formada işə salınması həm rayonda işsizliyin tamamilə aradan qaldırılmasına, həm cəbhə boyu zonada, ermənilərlə təmas xəttində yerləşən Daşkəsən rayon sakinlərinin daimi işlə təmin olunmasına hərtərəfli şərait yaradacaq, həm də uzun müddət problemli məsələlər tam öz həllini taparaq Daşkəsən rayonu regionda inkişaf etmiş pilot bir rayona, sənaye mərkəzinə çevriləcəkdir.

Bildiyiniz kimi “Azərbaycan Respublikasının metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası çox hörmətli Prezidenti cənab İlham Əliyevin 13 iyul 2016-cı il tarixli sərəncamı olmuşdur. Sərəncama əsasən, Azərbaycan Polad İstehsalı Kompleksinə daxil edilmiş “Daşkəsən Filizsaflaşdırma” ASC özəlləşdirməyə açıq elan olunmuş və bu məqsədlə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilmişdir. Çox təəssüflər olsun ki, müəssisənin bu günə kimi investisiya müsabiqəsi baş tutmamışdır, bu məsələ böyük problemə çevrilmişdir. Vurğulamaq istəyirəm ki, Daşkəsən şəhəri “Daşkəsən Filizsaflaşdırma” ASC-nin bazasında yaradılıb. Bu müəssisənin bağlanması əhalinin böyük əksəriyyətinin işsiz qalmasına səbəb olub.

Bu məqamda əlamətdar bir hadisəni də qeyd etmək istəyirəm. Artıq Türkiyənin “Demo” mühəndislik şirkəti ilə müqavilə bağlanmışdır və bu gündən “Daşkəsən Filizsaflaşdırma” ASC-nin balansında olan filiz ehtiyatının həcminin dəqiqləşdirilməsi ilə bağlı geoloji-kəşfiyyat işlərinə başlanıb.

“Yeni Daşkəsən” layihəsində “Çovdar” filiz emalı sahəsinin işə salınması məsələsi də əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Möhtərəm Prezident cənab İlham Əliyevin 11 fevral 2015-ci il tarixli sərəncamı ilə tərkibinə “Çovdar” qızıl zavodunun daxil olduğu “AzerGold” QSC yaradıldı. Qısa müddət ərzində “Çovdar” qızıl yatağının müasir texnologiyalarla istismarının təşkil edilməsi, zavodun işə salınması üçün müvafiq hazırlıq işləri tam başa çatdırıldı və zavod müasir texnologiyalar əsasında tikildi. “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin idarə heyətinin sədri hörmətli Zakir İbrahimovun rəhbərliyi altında “Çovdar” qızıl yatağının ən müasir texnologiyalarla istismarının təşkil edilməsi, müəssisənin işə salınması üçün müvafiq hazırlıq işləri, demək olar ki, tam başa çatmış, zavod ən müasir texnologiyalarla tikilmişdir. Əsasən yerli əhalinin mədən sahəsində işə qəbuluna üstünlük verən “AzerGold” QSC tərəfindən hazırda 450-dən çox işçi “Çovdar” filiz emalı sahəsində daimi işlə təmin edilib. Həqiqətən, “Çovdar” qızıl zavodunun müasir formada tikilərək hasilata başlaması Daşkəsən rayonunda işsizliyi aradan qaldırmaqla ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafına ciddi təkan verir. Yeni, müasir tipli “Çovdar” qızıl zavodunun istehsal etdiyi yüksək əyarlı brend 999,9 əyarlı Daşkəsən qızılı hazırda ölkəmizə iqtisadi gəlir, valyuta gətirməklə, dünyada şöhrət qazanır, belə ki, rayonumuz da regionda sənaye mərkəzinə çevrilir.

24 mart 2018-ci il tarixdə Daşkəsən rayonu ərazisində baş vermiş təbii fəlakət, güclü külək əsməsi-qasırğa nəticəsində bina və evlərə, o cümlədən Daşkəsən şəhərinin qəsəbə və kəndlərinin yaşayış, sosial və inzibati binalarının dam örtüklərinə və rayonun elektrik, rabitə təsərrüfatlarına şəxsi minik avtomobillərinə ziyan dəymişdir. Dəymiş ziyanın nəticələri əsasən aradan qaldırılmışdır.

Təəssüflər olsun ki, 24 iyun 2018-ci il tarixdə rayon ərazisində yenidən təbii fəlakət baş verdi və baş vermiş təbii fəlakət - (bəzi yaşayış məntəqələrində dolu və küləklə müşahidə olunan) güclü leysan yağışları nəticəsində yaranmış sel suları rayonun yol, elektrik, rabitə, qaz təsərrüfatlarına, məktəblərə, mədəniyyət obyektlərinə, sakinlərin fərdi yaşayış evlərinə və şəxsi təsərrüfatlara, o cümlədən əkin sahələrinə, avtomobillərə, ərazidə olan istirahət-ticarət obyektlərinə, yaylaqda vətəndaşların mal-qarasına ciddi ziyan vurmuşdur. Baş vermiş təbii fəlakət - güclü leysan yağışları nəticəsində yaranmış sel suları rayon ərazisindəki uzun illər (50 ilə yaxın müddətdə) istismarda olan Zağalı su anbarının (su tutumunun həcmi 4 milyon m3 olan), və hidrotexniki tunelin (en kəsiyi 16 m2, uzunluğu 1,7 km) bəzi hissələrinə xeyli ziyan vurmuşdur.

Təbii fəlakət nəticəsində rayonun Təzəkənd, Pirverdilər, Rəsullu, Xoşbulaq, Qazaxyolçular, Qaraqullar kəndləri ərazisindəki obyektlərə daha çox ziyan dəymişdir. Sel suları Təzəkənd kəndi ərazisində su keçid körpülərini tamamilə dağıtmış, Xoşbulaq kəndi ərazisində kəndin iki hissəsi arasında olan körpünü, bəzi istirahət-ticarət obyektlərinin köşklərini dağıdaraq aparmış, çay kənarında yerləşən bir neçə fərdi yaşayış evlərini yararsız hala salmış, bir çox yaşayış evlərini su basmışdır. Qaraqullar kəndi ərazisində sel suları kəndlərarası avtomobil yolunun xeyli hissəsini sıradan çıxarmış, bir neçə avtomobili kənddən keçən çay sularının axınına salmışdır. Çoxsaylı yaşayış məntəqələrinin rayon mərkəzi ilə gediş-gəliş əlaqəsi kəsilmişdir. Eyni zamanda sel suları xeyli elektrik və rabitə dayaqlarını, 5 ədəd elektrik transformatorunu sıradan çıxarmışdır. Bir çox ərazilərdə dağlardan iri qaya parçaları avtomobil yollarına tökülmüş, həmin yollarda nəqliyyatın hərəkəti tam dayanmış və yararsız hala düşmüşdür. Baş vermiş hadisə ilə əlaqədar dərhal Rayon İcra Hakimiyyətində qərargah yaradılmış, aidiyyəti üzrə idarə, müəssisə, xidmət təşkilatlarının, səhiyyə və hüquq-mühafizə orqanlarının rəhbərləri hadisə yerlərinə baxış keçirmişlər. Təbii fəlakətin vurduğu ziyanların aradan qaldırılması üçün Rayon İcra Hakimiyyətinin rəhbərliyi tərəfindən respublikanın aidiyyəti qurumlarına məlumatlar verilmiş, müraciətlər olunmuşdur. Dəymiş ziyanların aradan qaldırılması üçün aidiyyəti üzrə müəyyən işlər görülmüşdür və həmin işlər davam etdirilir.

2018-ci ilin 9 ayı ərzində Daşkəsən rayon Telekommunikasiya Qovşağı tərəfindən 195000 manat həcmində rabitə xidməti göstərilmişdir. Rayon Telekommunikasiya Qovşağına yeni müasir avadanlıqların gətirilməsinə, sürətli internet istifadəçilərinin sayının artırılmasına və rayonun kəndlərində əhalinin internetdən istifadə etmələri üçün lazımi şəraitin yaradılmasına ehtiyac vardır.

Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun yenidən qurulması işlərinə başlanılmış və hazırda həmin işlər yüksək səviyyədə davam etdirilir. 2019-cu ildə Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun yenidən qurulması üçün müvafiq sənədlər işlənib hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

2018-ci ilin 9 ayı ərzində “31 nömrəli Yol İstismarı” MMC tərəfindən respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və təmiri üzrə 722,2 min manatlıq iş görülmüşdür.

Cari ilin doqquz ayında əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə bir sıra təmir-bərpa, yenidənqurma işləri həyata keçirilmişdir. Daşkəsən Elektrik Şəbəkəsi tərəfindən zədələnmiş 5 ədəd müxtəlif güclü transformator dəyişdirilmiş, 27 ədəd 10-6/0,4kV-luq yarımstansiyada və 23,6 kilometr elektrikverici xətlərdə təmir işləri aparılmış, transformatorlara və yağ tutumlu avadanlıqlara 420 kiloqram transformator yağı əlavə olunmuşdur. 0,4 kV-luq şəbəkənin kabel xətti ilə çəkilməsi üçün 438 ədəd özünü daşıyan izolyasiyalı naqil (ÖİN) üçün metal dayaq basdırılmış, müxtəlif markalı 19990 metr ÖİN kabel çəkilmiş, 322 abonent dayağı quraşdırılmışdır. 35/6 kV-luq “Daşkəsən Filizsaflaşdırma” ASC-yə məxsus yarımstansiyadan çıxan 6 kV-luq Xoşbulaq və 6 kV-luq Dəstəfur hava xətlərinin Elektrik şəbəkəsinə məxsus 110/35/6 kV-luq Daşkəsən yarımstansiyasından qidalandırılması üçün tikintisi dayandırılmış I və II Əhmədli hava xətlərinin tikintisi davam etdirilmiş, 11,5 kilometr ikidövrəli hava xətti 5 fevral 2018-ci il tarixdə şəbəkəyə qoşulmuşdur. Əhmədli kəndi ərazisində 6 ədəd KRN çala quraşdırılmış və çıxış xətləri üçün 270 metr kabel çəkilmiş, 3 ədəd mufta bağlanaraq 6 kV-luq Xoşbulaq, 6 kV-luq Dəstəfur hava xətlərinin 110/35/6 kV-luq Daşkəsən elektrik yarımstansiyasından qidalandırılması təmin edilmişdir. Elektrik şəbəkəsinin rəhbərliyi elektrik şəbəkəsinin yeni müasir tələblər səviyyəsində qurulmasını, elektrik enerjisinin dəyərinin tam ödənilməsini təmin etməli və qeyri-balans itkisinin səbəblərini müəyyənləşdirərək bu sahədə daha ciddi tədbirlər görülməsini təmin etməlidir.

Hazırda rayonun 49 yaşayış məntəqəsindən cəmi 8 yaşayış məntəqəsi təbii qazla təmin olunur. Azərbaycan Respublikası Prezidentinin 3749 nömrəli, 5 mart 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş 2018-ci ildə qazlaşdırılması nəzərdə tutulan yaşayış məntəqələri və ərazilərin siyahısında Daşkəsən rayonu üzrə Quşçu və Bayan kəndləri nəzərdə tutulmuşdur. Quşçu və Bayan kəndlərində təbii qaz xəttinin çəkilişinə başlanılmış və hazırda həmin işlər davam etdirilir.

Qaz Xidməti Sahəsi üzrə 2018-ci ilin 9 ayı ərzində əhaliyə verilən təbii qazın dəyərinin ödənilməsi 108,5 %, ümumi ödəmə üzrə isə göstərici 93,3 % olmuşdur. Rayonda istehlakçıların təbii qazla təmin olunmasında mövcud problemlərin həll edilməsi üçün Qaz Xidmət Sahəsinin rəhbərliyi aidiyyəti üzrə lazımi tədbirlər görməlidir.

Daşkəsən rayon Sukanal İdarəsinin yeni təyin olunmuş rəhbərliyi idarənin fəaliyyətində yaranmış çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti üzrə müvafiq tədbirlər görülməsini təmin etməlidir.

Azərbaycan Respublikasının Prezidenti Möhtərəm cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi İcra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova 16 aprel 2018-ci il tarixində Daşkəsən şəhərində Daşkəsən, Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını, çoxşaxəli islahatlar proqramını yaradıcılıqla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında bu gün Azərbaycan dövləti və cəmiyyəti həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 15 illik Prezidentlik dövrü ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Prezidentimiz İlham Əliyev Respublikamızın sürətli inkişafından, qazanılan xarici və daxili nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə, qürur hissi ilə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidar birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı böyük inam şəraitində möhtərəm Prezident cənab İlham Əliyev güclü lider kimi hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və qələbələrə doğru aparacaqdır.

İcazə verin Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevi bir daha da əmin edim ki, bundan sonra da qarşıda duran vəzifələrin layiqincə yerinə yetirilməsi üçün biz daşkəsənlilər bir daha da yüksək əzmkarlıq göstərərək bütün qüvvələrimizi səfərbər edib var gücümüzlə çalışaraq fəaliyyətimizi gücləndirəcəyik.

Yaşasın Ulu Öndər Heydər Əliyevin ideyaları!

Müasir müstəqil Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə eşq olsun!

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin dərin məzmunlu geniş nitqindən sonra məruzə ətrafında rayon üzrə Maliyyə İdarəsinin rəisi Natiq Zeynalov, RİHB-nin Daşkəsən şəhər İƏDÜN-si Nüsrət Vəliyev, Daşkəsən Telekommunikasiya Qovşağının rəisi Aslan Rüstəmov və digərləri çıxışlar etmiş, qarşıda duran vəzifələrin icrasından danışmış, daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə möhtərəm Prezidenti cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.

Müzakirə olunan məsələlərlə əlaqədar olaraq yığıncaqda qərar qəbul edildikdən sonra toplantı iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV AYRI-AYRI GÜNLƏRDƏ RAYONUN KƏNDLƏRİNDƏ, YAŞAYIŞ MƏNTƏQƏLƏRİNDƏ, ƏRAZİLƏRDƏ VƏTƏNDAŞLARIN NÖVBƏTİ SƏYYAR QƏBULLARINI KEÇİRİB

OKTYABRIN 3-DƏ DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV TƏSDİQ EDİLMİŞ QRAFİKƏ UYĞUN OLARAQ QUYTUL KƏNDİNDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULUNU KEÇİRİB.

Görüşdə Rayon İcra Hakimiyyəti Başçısı Aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə müəssisə və təşkilatların rəhbərləri, kənd sakinləri iştirak ediblər.

Çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tapşırıqlarına əsasən bütün ölkə ərazisində, o cümlədən Daşkəsəndə həyata keçirilən irimiqyaslı abadlıq və quruculuq işləri, əhalinin sosial və iqtisadi problemlərinin kompleks həlli istiqamətində icra olunan dövlət proqramları və cari işlər, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın təhsil, səhiyyə və mədəniyyət sahəsində xidmətləri, ölkə rəhbərinin uğurlu daxili və xarici siyasəti barədə sakinlərə geniş məlumat verib.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev xüsusilə qeyd edib ki, həyata keçirilən abadlıq-quruculuq işlərində başlıca məqsəd Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vətəndaşların firavan həyat şəraitinin təmin olunmasına dair göstərişlərini yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirməkdən ibarətdir.

Sonra sakinlərin müraciətləri dinlənilib. Əhəd Abıyev qaldırılan məsələlərin icrası ilə bağlı aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə öz müvafiq tapşırıqlarını verib. Müraciətlərin bir qismi yerində həll edilib.

Kənd sakinləri onların problemlərin həlli ilə bağlı yerlərdə keçirilən görüşlərdən razı qaldıqlarını qeyd edərək göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

OKTYABRIN 10-DA DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ NÖVBƏTİ SƏYYAR QƏBULU TƏZƏKƏND KƏNDİNDƏ OLUB.

Görüşdə Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət, digər xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Qəbulda Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev son illər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun gücləndiyini, əldə edilən iqtisadi və siyasi uğurlar nəticəsində ölkəmizdə əhalinin həyat səviyyəsinin gündən-günə yaxşılaşdığını diqqətə çatdırıb.

Əhəd Abıyev qəbul olunan dövlət proqramlarının icrası nəticəsində bütün regionlarda, o cümlədən Daşkəsəndə həyata keçirilən abadlıq-quruculuq işləri barədə geniş məlumat verib. Qeyd edib ki, gündən-günə dəyişən, gözəlləşən Daşkəsəndə yeni məktəb binaları və sosial obyektlər tikilir, yollar salınır. Əhalinin fasiləsiz elektrik enerjisi və təbii qazla təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Sonra vətəndaşlar dinlənilib. Görüş zamanı kənd sakinlərinin müxtəlif məsələlər barədə müraciətləri qeydə alınıb.

Sakinləri dinləyən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev müraciətlərin araşdırılaraq həll olunması məqsədilə aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə tövsiyə və tapşırıqlarını verib. Qəbulda sakinləri maraqlandıran digər məsələlər barədə də söhbətlər aparılıb.

Görüşdə çıxış edən kənd sakinləri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək möhtərəm Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

OKTYABRIN 17-DƏ NÖVBƏTİ SƏYYAR QƏBUL QARATAĞLAR KƏNDİNDƏ KEÇİRİLİB.

Qaratağlar kənd ümumi orta məktəbinin qarşısında açıq havada baş tutan qəbulda Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, aparatın şöbə müdirləri, məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev giriş nitqində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hər bir ərazisində olduğu kimi, Daşkəsən rayonunda da bütün sahələrdə inkişafın olduğunu və genişmiqyaslı abadlıq-quruculuq işlərinin aparıldığını qeyd edərək sakinlərin rifahının daha da yaxşılaşması istiqamətində məqsədyönlü tədbirlərin daim həyata keçirildiyini bildirib.

Daha sonra Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev sakinlərin müraciətlərini dinləyib.

Hər bir sakinin probleminə diqqətlə yanaşan Əhəd Abıyev vətəndaşların müraciətlərinin araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun olaraq həllinə dair aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

Səyyar qəbulda sakinlərin müraciəti əsasən kənd ərazisində olan su keçidinin təmir olunması, istismara yararsız vəziyyətə düşmüş elektrik dirəklərinin və naqillərinin dəyişdirilməsi, kəndə təbii qaz xəttinin çəkilməsi, kənd ümumi orta məktəbinin pəncərələrinə şüşələrin salınması, işlə təmin olunma və digər məsələlərlə bağlı olub. Sakinlər tərəfindən qaldırılan məsələlərin əksəriyyəti Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin müvafiq göstərişi ilə yerində həll edilib, bəzi müraciətlər isə aidiyyəti qurumlar tərəfindən həll edilməsi üçün qeydə alınıb.

Sakinlər onların müraciətlərinə baxılması üçün yaradılan yüksək şəraitdən razılıq edərək göstərdiyi ali diqqət və qayğıya görə möhtərəm Prezident cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

OKTYABRIN 25-DƏ DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ MƏSUL İŞÇİSİ ARİF NOVRUZOVUN İŞTİRAKI İLƏ ƏMİRVAR-ƏHMƏDLİ KƏNDİNDƏ SAKİNLƏRİN SƏYYAR QƏBULUNU KEÇİRİB.

Əmirvar-Əhmədli kənd S.Ələkbərov adına ümumi orta məktəbin binasında baş tutan qəbulda rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Kənd sakinləri ilə növbəti görüşü giriş nitqi ilə açan Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev vətəndaşların səyyar qəbullarının məqsədinin yerlərdə ortaya çıxan problemlərin öyrənilməsi, onların həlli istiqamətində operativ kompleks addımların atılması olduğunu qeyd edib. Belə görüşlərin ölkə Başçısı cənab İlham Əliyevin tapşırığı ilə rayonda mütəmadi olaraq keçirildiyini bildirən Əhəd Abıyev vətəndaşların müraciətlərinə həssas münasibət göstərmək barədə tapşırıqların daim diqqət mərkəzində saxlanıldığını deyib.

Son illər respublikamızda və Daşkəsən rayonunda görülmüş təmir-bərpa, abadlıq-quruculuq işləri barədə geniş məlumat verən Əhəd Abıyev rayonun Əmirvar kənd inzibati ərazi vahidliyində də xeyli abadlıq, quruculuq, təmir-bərpa işlərinin aparıldığını, bütün potensial imkanlar nəzərə alınmaqla bir çox layihələrin uğurla icra olunduğunu, sakinlər tərəfindən qaldırılan problemlərin həlli istiqamətində daim tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Rayon rəhbəri deyib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq 24,5 km uzunluğunda olan Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisində son tamamlanma işləri aparılır.

Möhtərəm Prezident cənab İlham Əliyevin “Daşkəsən rayonunun Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında” 24 oktyabr 2018-ci il tarixli Sərəncamını ölkə Başçısının daşkəsənlilərə olan ali diqqət və qayğısı kimi səciyyələndirən Əhəd Abıyev bildirib ki, üç min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13,3 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılmışdır. Əhəd Abıyev xüsusilə qeyd edib ki, 2 hərəkət zolaqlı, hərəkət hissəsi 6 metr olan Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisi ilə vətəndaşların gediş-gəlişi, yük və sərnişin daşınması daha da asanlaşacaq, yolboyu 9 yaşayış məntəqəsində yaşayan 3 mindən artıq vətəndaşın həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir göstərən kənd təsərrüfatının ayrı-ayrı sektorları inkişaf edəcəkdir. Bununla yanaşı, yeni tikilən avtomobil yolu ən əsası bölgədə turizmin inkişafına geniş imkanlar yaradacaqdır ki, bu istiqamətdə də müvafiq qurumlarla işlər aparılır. Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev hər zaman daşkəsənlilərə göstərdiyi ali diqqət və qayğıya bütün görə möhtərəm Prezident cənab İlham Əliyevə bütün daşkəsənlilər adından dərin minnətdarlıq bildirib.

Rayon İcra Hakimiyyətinin Başçısı çıxışında onu da diqqətə çatdırıb ki, ötən dövrlərdə 80 şagird yerlik Əmirvar-Əhmədli kənd S.Ələkbərov adına ümumi orta məktəbi müasir formada yenidən tikilərək istifadəyə verilmişdir.

Qəbulda iştirak edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov çıxış edərək bildirib ki, möhtərəm Prezident cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Rayon İcra Hakimiyyəti başçılarının yerlərdə səyyar qəbulların keçirilməsinin məqsədi sakinlərin öz müraciətlərini uzaq məsafələr qət etmədən bildirməsi, əhalini narahat edən problemlərin öyrənilməsi, rayon səviyyəsində həlli mümkün olan müraciətlərin yerindəcə həll edilməsi, mərkəzi icra hakimiyyəti orqanlarının səlahiyyətləri çərçivəsində olan müraciətlərin isə ümumiləşdirilərək aidiyyəti qurumlar qarşısında qaldırılmasıdır.

Arif Novruzov müstəqil respublikamızın inkişaf strategiyası barədə də danışıb. O, qeyd edib ki, həyata keçirilən məqsədyönlü siyasət sayəsində ölkəmiz sosial və iqtisadi infrastruktur quruculuğunda, özəl sektorun inkişafında, sənayeləşmədə, aqrar sektorun istehsal və ixrac imkanlarının genişləndirilməsində, makroiqtisadi sabitliyin təmin olunmasında, əhalinin rifah halının yaxşılaşmasında diqqətəlayiq uğurlara imza atmışdır və nəticə etibarilə, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu iqtisadi islahatlar strategiyası Azərbaycanın dayanıqlı inkişafı üçün etibarlı zəmin yaratmışdır.

Arif Novruzov bildirib ki, hazırda möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla, yüksək səviyyədə davam etdirilən sosial-iqtisadi inkişaf strategiyasının başlıca məqsədi Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsidir. Həyata keçirilən strateji kursun uğurlu nəticələri isə deməyə əsas verir ki, Azərbaycan gələcəyə əmin addımlarla irəliləyir.

Daha sonra Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev istər şəxsi, istərsə də kəndlə bağlı müraciəti və ya təklifi olan sakinlərə öz müraciətlərini etmələrini xahiş edib.

Kənd sakinlərindən çıxış edənlər müraciətlərində kənd ərazisində olan elektrik naqillərinin SİP kabellə əvəzləşdirilməsini, təbii qaz xəttinin çəkilməsini, işlə təmin olunmağa kömək edilməsini, uşaq bağçasının tikintisini, genişzolaqlı internet xəttinin çəkilməsini və digər problemlərinin həllinə köməklik göstərilməsini xahiş ediblər.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev müraciətlərdə qaldırılan məsələlərin icrası ilə bağlı aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlarını verib. Əksər müraciətlər yerində həll edilib, bəzi müraciətlərin isə həlli üçün aidiyyəti üzrə mərkəzi icra hakimiyyəti orqanlarının qarşısında qaldırılması tapşırılıb.

Səyyar qəbulda iştirak edən sakinlər rayonda, o cümlədən ərazidə gedən abadlıq, quruculuq işlərinə, xüsusilə Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisinə görə ölkə Prezidenti cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

AZƏRBAYCAN XALQININ XİLASKARI - ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin bu məqaləsi noyabrın 3-də MİLLİMECLİSXEBER.AZ saytında nəşr edilib.

Müasir Azərbaycan tarixinin bütöv bir epoxası, önəmli bir mərhələsi Ulu Öndər Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin 34 illik rəhbərliyi dövrü Azərbaycan tarixinin ən yüksək inkişaf mərhələsi olmuşdur. Müstəqil ölkəmizin bugünkü uğurları Heydər Əliyev strategiyasının təntənəsidir. Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolundadır, həyatımızın bütün sahələrində yüksəliş, tərəqqi vardır. İqtisadi artım tempinə görə respublikamız son illər bütün dünyada lider mövqeyə yüksəlib. İndi ölkəmizdə davam edən genişmiqyaslı quruculuq işləri Heydər Əliyev zəkasının bəhrəsidir. Azərbaycanın tarixinə qurucu və xilaskar kimi daxil olmuş Ulu Öndərimiz xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlər göstərmişdir.

Heydər Əliyev xalqını sonsuz məhəbbətlə sevmiş, xalq da onun sevgisini daim uca tutmuşdur. Məhz xalqına bu məhəbbət dünya şöhrətli siyasi xadimi yenidən öz Ana Vətəni Azərbaycana ikinci dəfə ölkə rəhbərliyinə qaytarmışdır. 1993-cü ilin keşməkeşli iyun günlərində xalqın təkidli tələbi və xahişi ilə yenidən hakimiyyətə qayıdan böyük və bənzərsiz şəxsiyyət Heydər Əliyev xalqın başının üstünü almış bütün bəlalardan millətini hifz edib qorudu, respublikada ictimai-siyasi sabitliyi təmin etdi, vətəndaş qarşıdurmasını aradan qaldırdı, ölkəni parçalanmaq təhlükəsindən xilas etməklə milli qurtuluşu təmin etdi. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı.

Ümummilli Lider Heydər Əliyevin işləyib hazırladığı və mərhələ-mərhələ reallaşdırdığı "Əsrin müqaviləsi" milli neft strategiyası Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir. Ölkənin strateji əhəmiyyətli sahələrinin inkişafına, bütün sahələrdə genişmiqyaslı islahatların aparılmasına böyük imkanlar açmışdır. Hazırda Azərbaycanda bu möhtəşəm strategiyanın real nəticələrini görürük. "Əsrin müqaviləsi" çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft-boru kəməri Azərbaycanı inkişaf etmiş, Qərb ölkələri ilə daha sıx birləşdirir. Ölkəmizin iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, TRASEKA nəqliyyat dəhlizinin həyata vəsiqə alması da Ümummilli Liderimizin çox böyük xidmətlərindəndir.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməklə bərabər, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Respublikamız insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Heydər Əliyevin hələ 1993-cü ildən tətbiqinə moratorium qoyulduğu ölüm hökmü 1998-ci ildən tamamilə ləğv edilmiş, bununla da Azərbaycan Şərqdə bu qətiyyətli və tarixi qərarı qəbul edən ilk ölkə olmuşdur. Yüksək humanizmə söykənən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi .mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Bu təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın milli qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılmasına ciddi təkan vermişdir.

Bütün varlığı ilə Vətənə və xalqa candan bağlı olan böyük şəxsiyyət və dövlət xadimi Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etmişdir. Azərbaycanın bugünkü sürətli və irimiqyaslı inkişafının təməlini Heydər Əliyev yaradıb. Biz bu gün onun yaratdığı fundamental təməl üzərində ucalır, dünyanın inkişaf etmiş ölkələri sırasına çıxırıq.

Ümummilli Liderimiz Heydər Əliyevin xalqımız qarşısında ən böyük və tarixi xidmətlərindən biri də ondan ibarətdir ki, o, sürətli inkişaf yoluna qədəm qoymuş Azərbaycanı cəsarətlə idarə etməyə qadir olan layiqli davamçı hazırlamışdır. Yüksək təfəkkür, zəngin dövlətçilik və idarəçilik təcrübəsi qazanmış, müasir düşüncəli, praqmatik lider İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inamla gələcəyə doğru irəliləyir. Zəngin dövlətçilik məktəbindən dərs alan, təcrübəli diplomat, möhtərəm Prezident cənab İlham Əliyev dünyada ən islahatçı dövlət başçılarından biri kimi qəbul edilir. Onun düşünülmüş siyasəti nəticəsində Azərbaycan dünyanı bürüyən maliyyə böhranı zamanı da ən az zərər çəkən ölkə olmuşdur. Sevindirici haldır ki, Ümummilli Liderimizin siyasi xətti bu gün möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən qloballaşan dünyanın tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

Heydər Əliyev qürur hissi ilə deyərdi: "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam...".

Bu gün Azərbaycan xalqı fəxr edir ki, onun Heydər Əliyev kimi bir övladı var. Qəlbi həmişə Azərbaycanla döyünmüş Heydər Əliyevin parlaq xatirəsi daim dərin ehtiramla anılacaq və seviləcəkdir.

Əhəd ABIYEV
Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı

YAP DAŞKƏSƏN RAYON TƏŞKİLATININ İCRA HAKİMİYYƏTİ APARATI İLK PARTİYA TƏŞKİLATININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Oktyabrın 24-də YAP Daşkəsən rayon təşkilatının İcra Hakimiyyəti Aparatı ilk partiya təşkilatının növbəti iclası keçirilib. İclasın gündəliyində duran əsas məsələ İcra Hakimiyyəti Aparatı ilk partiya təşkilatından YAP Daşkəsən rayon təşkilatı Gənclər Birliyinin və Qadınlar Şurasının V Konfransına nümayəndələrin seçilməsi olub.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev yığıncağı giriş sözü ilə açaraq YAP-ın çətin və şərəfli yol keçməsi, partiyanın ölkəmizdə anarxiya və özbaşınalığın hökm sürdüyü bir vaxtda Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılması, əslində bu təşkilatın yaradılmasının Azərbaycan cəmiyyətinin tələbi olması, YAP-ın sədri seçildikdən sonra partiyanın möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən daha da möhkəmləndirilməsi və güclənməsi, üzvlərinin sayının artması, bunun nəticəsində partiyanın bu gün 7 yüz 23 min nəfərdən çox üzvünün olması, partiya üzvlərinin əksəriyyətini ziyalıların, qadınların və gənclərin təşkil etməsi, partiyanın qəbul etdiyi siyasi kursun bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, "YAP-ın bu günün, sabahın və gələcəyin partiyası" olması barədə geniş məlumat verib.

Əhəd Abıyev xüsusilə diqqətə çatdırıb ki, YAP-ın bütün uğurlarının və qələbəsinin arxasında xalqın Ulu Öndər Heydər Əliyev siyasətinə və onun ən layiqli davamçısı möhtərəm Prezidentimiz, YAP-ın sədri cənab İlham Əliyevə olan sarsılmaz inamı və bu inamdan doğan dəstəyi dayanır.

"Bu partiyanın yaxından iştirakı ilə Azərbaycan böyük bir inkişaf yolu keçdi. Ölkəmizdə azad bazar iqtisadiyyatı prinsipləri bərqərar oldu. Vətəndaş cəmiyyəti formalaşdı. Söz və mətbuat azadlığı təmin edildi. İnsan hüquq və azadlıqlarının qorunması istiqamətində mühüm addımlar atıldı. Çoxpartiyalı sistem yaradıldı. Seçki təcrübəsi ildən-ilə daha da təkmilləşdirildi. Azərbaycan dünyanın nüfuzlu qurumlarına tamhüquqlu üzv qəbul olundu və Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə, təcrübəsi ilə, yaratdığı örnəklərlə, yetişdirdiyi peşəkar kadrlarla bu prosesin hər zaman önündə gəldi. İnkişafın avanqardı oldu. Azərbaycanda sabitliyin qorunması, demokratik siyasi münasibətlər sisteminin bərqərar edilməsi, bazar iqtisadiyyatı modelinin yaradılması, tarixi ənənələrə və müasir dünyanın təcrübəsinə əsaslanan milli dövlətin qurulması kimi bir sıra mühüm vəzifələri uğurla yerinə yetirərək ölkənin siyasi həyatındakı yerini müəyyənləşdirdi. Bütün bunlar Yeni Azərbaycan Partiyasını daha da gücləndirdi. Regionun aparıcı siyasi qüvvəsi kimi Azərbaycanda və ölkə hüdudlarından kənarda onun nüfuzunu daha da yüksəltdi. Azərbaycanda hüquqi dövlətin, sabit və sosialyönümlü iqtisadiyyatın, vətəndaş cəmiyyətinin inkişafını istəyən, cəmiyyətdə vəhdətə, qloballaşma proseslərinin üstünlükləri ilə xalqın milli-mənəvi dəyərlərinin uyğunluğuna can atan vətəndaşların əhatəsi bu partiyada gündən-günə genişləndi və yenə də genişlənir", - deyə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev çıxışında qeyd edib.

YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev də çıxış edərək partiya rayon təşkilatının ötən dövr ərzində gördüyü işlər barədə danışıb. O deyib: "YAP Daşkəsən rayon təşkilatı fəaliyyətini partiya rəhbərliyi tərəfindən qarşıya qoyulmuş bütün vəzifələrin yerinə yetirilməsi üçün uğurla davam etdirir. Fəaliyyətimizi, öz işimizi partiyanın İcra katibliyinin tövsiyə və tapşırıqlarına, həmçinin YAP-ın nizamnamə və proqramına müvafiq müəyyənləşdirmişik. Hazırda təşkilatın üzvlərinin sayı 4520 nəfərə çatıb və rayonumuzda YAP-a rəqib ola biləcək alternativ bir partiya yoxdur. Bunun səbəbi daşkəsənlilərin Ümummilli Lider Heydər Əliyev siyasətinə daim göstərdikləri sədaqətdən və sevgidən irəli gəlir. Rayon təşkilatı müəyyən olunmuş vaxtlarda toplaşır, təşkilatın işini və qarşıda duran vəzifələri müzakirə edirlər. Ümumiyyətlə, rayon təşkilatı olaraq hər ilin əvvəlində tədbirlər planı təsdiq edirik və bu plana uyğun olaraq fəaliyyətimizi qururuq. Hər il bütün əlamətdar günlər, tarixi hadisələrlə və s. bağlı tədbirlər keçiririk. Xüsusilə, seçki kampaniyaları dövründə partiyamızın qələbəsini təmin etmək üçün yerli təşkilat olaraq üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq".

Daha sonra YAP Daşkəsən rayon təşkilatı Gənclər Birliyinin V Konfransına İcra Hakimiyyəti Aparatı ilk partiya təşkilatından Elşən Alıyev, Kənan Bayramov, Elxan Hüseynzadə, Yaqub Bayramov və Ramin Ələsgərli, YAP Daşkəsən rayon təşkilatı Qadınlar Şurasının V Konfransına isə İcra Hakimiyyəti Aparatı ilk partiya təşkilatından Aidə Nağıyeva, Ramida Süleymanova, İlahə Xıdırova, Şahnaz Tağıyeva və Səidə Hökmalıyeva nümayəndə seçiliblər.

Elmar ƏLİYEV
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

"UĞURDAN GƏLƏCƏYƏ" LAYİHƏSİNİN YEKUN TƏDBİRİ QEYD EDİLİB

Oktyabrın 29-da Daşkəsən rayon Heydər Əliyev Mərkəzində Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar" üzrə 2-ci Qrant müsabiqəsinin qalibi olmuş "Uğurdan Gələcəyə" layihəsinin yekunu münasibətilə təntənəli tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidə kompleksi önünə gül dəstələri qoyublar.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev "Uğurdan Gələcəyə" layihəsinin yekun tədbirində iştirak edərək rayon məktəblilərinin belə layihələrdə iştirakının müsbət hal olduğunu bildirib və ölkəmizdə, o cümlədən Daşkəsəndə aparılan uğurlu təhsil islahatlarından söz açıb.

"Möhtərəm Prezident cənab İlham Əliyevin ali diqqət və qayğısı sayəsində respublikanın hər bir yerində olduğu kimi, Daşkəsən rayonunda da təhsilin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, dərs vəsaitləri ilə təminatı, müəllimlər üçün normal iş şəraitinin yaradılması daim diqqət mərkəzində saxlanılır. Rayonun coğrafi baxımdan mürəkkəb dağlıq relyefdə yerləşməsinə, qış aylarında soyuq, sərt iqlim şəraitinə baxmayaraq, rayon məktəblərinin hər birisi istiliklə təmin olunmuşdur. Təkcə son 7 ildə Quşçu, Əmirvar, Mollahəsənli, Muşavaq, Bayan, Əmirvar-Əhmədli kəndlərində və Daşkəsən qəsəbəsində müasir tələblərə tam cavab verən yeni ümumtəhsil məktəb binaları tikilib istifadəyə verilmiş, bir çox təhsil müəssisələri isə əsaslı təmir edilmişdir. Bu tendensiya indi rayonumuzda modul tipli məktəblərin quraşdırılması ilə davam etdirilir", - deyən Əhəd Abıyev qazanılan uğurlarda bu amillərin təsiri olduğunu vurğulayıb.

Çıxışının sonunda Əhəd Abıyev layihənin rəhbəri Aşağı Daşkəsən kənd G. İsmayılov adına tam orta məktəbin coğrafiya müəllimi Səbinə Qədirovanı və gəncləri layihənin uğurla yekunlaşması münasibətilə təbrik edərək daha böyük nailiyyətlər diləyib.

Layihə rəhbəri Səbinə Qədirova isə hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, 2017-2018-ci tədris ilində IX sinif buraxılış imtahanlarında Daşkəsən rayonu üzrə yüksək nəticə göstərmiş 6 şagird Bakı Dövlət Universitetinin Quba rayonunda yerləşən tədris-təcrübə və istirahət mərkəzinin yay düşərgəsində keçirilən 3 günlük təlimlərində iştirak ediblər. Layihə çərçivəsində istedadlı təlimçilər Daşkəsən, Quba və Balakən rayonlarının hər birindən 6 şagird olmaqla, ümumilikdə 18 şagirdə müasir metodlar əsasında gələcəkdə düzgün peşə seçimi edə bilmələri üçün müvafiq məlumat və istiqamət veriblər.

Çıxış edən müəllimlər, şagirdlər və valideynlər ölkəmizdə təhsilin inkişafı üçün yaradılmış hər cür yüksək şəraitə görə ölkə rəhbərinə dərin minnətdarlıqlarını ifadə edərək layihənin qalibi olmuş gənclərdən ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr gözlədiklərini bildiriblər.

Orxan Həsənov
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi

DAŞKƏSƏNDƏ AZƏRBAYCAN ƏDLİYYƏSİNİN YARADILMASININ 100 İLLİK YUBİLEYİ VƏ 22 NOYABR - ƏDLİYYƏ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜ QEYD EDİLİB

Noyabrın 22-də Daşkəsən rayonunda Azərbaycan ədliyyəsinin 100 illik yubileyi və 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü ilə əlaqədar tədbir keçirilib.

Bayram tədbirində rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının rəhbərləri, məhkəmə işçiləri, ədliyyə qulluqçuları, ağsaqqallar və ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə rayon mərkəzidə ucaldılmış Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla anıblar.

Bundan sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxıblar.

Rayonun Heydər Əliyev Mərkəzdə keçirilən tədbirdə Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Namiq Süleymanov çıxış edib. O, çıxışında deyib:

- Daşkəsən Rayon Məhkəməsinin sədri hörmətli Əliyev Azad Allahverdi oğlu - sizi və kollektivinizi Azərbaycan ədliyyəsinin 100 illik yubileyi və 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü münasibəti ilə başda hörmətli Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının Sədri, I dərəcəli dövlət ədliyyə müşaviri hörmətli Fikrət Məmmədov və Ali Məhkəmənin sədri hörmətli Ramiz Rzayev olmaqla Daşkəsən rayon ictimaiyyəti adından, o cümlədən Rayon İcra Hakimiyyətinin Başçısı hörmətli Əhəd Abıyevin adında səmimi qəlbdən təbrik edirəm, sizlərə möhkəm cansağlığı və şərəfli işinizdə yeni-yeni uğurlar arzulayıram.

Milli dövlətçiliyimizin inkişafında müstəsna rolu olan ədliyyə işçilərinin peşə bayramının qeyd edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli sərəncamı ilə təsis edilmiş 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı bu il Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ilə əlamətdar olmaqla ədliyyə işçiləri tərəfindən ikiqat sevinc hissi ilə qeyd olunur.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə ədliyyə tariximizin yeni, şərəfli səhifəsi açılmışdır. Milli dövlət quruculuğunda ədliyyə fəaliyyətinə böyük önəm verilərək nazirlik Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı gün - 1918-ci ilin may ayının 28-də təsis edilmiş və öz arxitekturası ilə Bakıya gözəllik verən, hazırda Səadət Sarayı adlanan binada fəaliyyət göstərmişdir. Təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuş və həmin ilin noyabr ayının 22-də peşə bayramı kimi qeyd etdiyimiz gündə nazirliyin əsasnaməsi təsdiq edilmişdir.

Müstəqillik əldə etdikdən sonra xalqımızın xilaskarı, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, zəngin ənənələrə malik Azərbaycanın ədliyyə orqanları sahəsində də əsaslı islahatlar aparılmağa başlandı. Bu dövrdə Ulu Öndərin bilavasitə sədrliyi ilə Hüquqi İslahat Komissiyası yaradıldı və qısa müddət ərzində hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən quruldu. Bütün hüquqi əsas qanunlar beynəlxalq hüquq normalarının tələbləri nəzərə alınmaqla ölkəmizdə yeni hüquqi qanunvericilik bazası yaradıldı. Ümummilli Liderin rəhbərliyi ilə yeni üç pilləli məhkəmə sisteminin yaradılması, hakimlərlə ilk dəfə test üsulu ilə keçirilmiş şəffaf müsabiqə əsasında hakim korpusunun 60 faizə qədər təzələnməsi ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə xidmət etmişdir.

Ümummilli Liderimizin dövlət quruculuğu xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə mühüm qərarlar qəbul olunmuşdur. Ölkə Başçısının insan hüquqlarının etibarlı qorunması, hüquqi xidmətin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə tapşırıqlarının icrası üzrə görülmüş tədbirlər nəticəsində Ədliyyə Nazirliyi öz inkişafının müasir mərhələsinə qədəm qoymuş, məhkəmə-hüquq islahatları prosesi keyfiyyətcə yeni səviyyəyə qalxmış, ədliyyə və məhkəmə infrastrukturu əhəmiyyətli dərəcədə yeniləşdirilmişdir.

Bu gün Azərbaycanda müşahidə olunan iqtisadi inkişaf ədliyyə orqanlarının fəaliyyətində də öz əksini tapmışdır. Bunun nəticəsidir ki, ədliyyə işçilərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması daim ölkə Başçısının diqqət mərkəzindədir.

Bayram ərəfəsində ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən fərqlənmiş bir qrup hakimlərə və ədliyyə orqanlarg işçilərinə fəxri adların verilməsi və onların dövlət təltiflərinə layiq bilinməsi dövlətimizin ədliyyə sisteminə göstərdiyi diqqət və qayğısının növbəti təzahürüdür.

Bu məqamda fürsətdən istifadə edib, hörmətli Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, I dərəcəli dövlət ədliyyə müşaviri hörmətli Fikrət Məmmədovu və Ali Məhkəmənin Sədri hörmətli Ramiz Rzayevi Azərbaycan Respublikasının Prezidenti çox hörmətli cənab İlham Əliyevin Sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmələri münasibəti ilə Daşkəsən rayon ictimaiyyəti adından və Rayon İcra Hakimiyyətinin Başçısı hörmətli Əhəd Abıyevin adından səmimi qəlbdən təbrik edir, ən xoş arzularımızı çatdırırıq.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi və bu gün möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlətçilik amallarına sadiq qalaraq ölkəmizin hərtərəfli tərəqqisində və demokratik-hüquqi dövlət quruculuğu işində möhtərəm Prezidentimizə layiqli yardımçı olmaq üçün bundan sonra da Daşkəsən Rayon Məhkəməsi və kollektivi əzmkarlıqla və məsuliyyətlə çalışacaqdır.

Bir daha da Daşkəsən Rayon Məhkəməsini və bütün ədliyyə işçilərini Azərbaycan ədliyyəsinin 100 illik yubileyi və 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə Daşkəsən rayon ictimaiyyəti adından, o cümlədən Rayon İcra Hakimiyyətinin Başçısı hörmətli Əhəd Abıyevin adından ürəkdən təbrik edir, sizlərə şərəfli işlərinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Namiq Süleymanovun çıxışından sonra Daşkəsən Rayon Məhkəməsinin sədri Azad Əliyev çıxış edərək başda Azərbaycan Respublikasının Ədliyyə Naziri, Məhkəmə-Hüquq Şurasının Sədri hörmətli Fikrət Məmmədov olmaqla, bütün ədliyyə işçilərini Azərbaycan ədliyyəsinin 100 illik yubileyi və 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə təbrik edib, işlərində yeni-yeni müvəffəqiyyətlər arzulayıb. Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən tədbirlərin və qazanılan nailiyyətlərin möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə aparılan genişmiqyaslı işlərin real təzahürü olduğunu, dövlət Başçısının rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin və məhkəmə-hüquq sisteminin mütərəqqi islahatlar aparılmaqla təkmilləşdiyini, səlahiyyətlərinin xeyli genişləndiyini, cəmiyyətdə yeri və rolunun əhəmiyyətli dərəcədə artdığını vurğulayıb, ədliyyə orqanlarının qanunun aliliyinin və insan hüquqlarının qorunmasında, şəffaflığın və ictimai iştirakçılığın təmin olunmasında mühüm fəaliyyətini qeyd edib, ədliyyə işçilərinə xoş arzularını çatdırıb. Azad Əliyev peşə bayramlarını böyük ruh yüksəkliyi ilə qeyd edən Daşkəsən rayon ədliyyə işçilərinin dövlət Başçısının ətrafında sıx birləşməklə, bundan sonra da böyük səy və yüksək məsuliyyət hissi ilə çalışaraq xalqımıza şərəflə xidmət edəcəklərinə, ölkəmizin müasir inkişafına uyğun olaraq öz vəzifələrini hər zaman layiqincə yerinə yetirəcəklərinə əminlik ifadə edib, göstərilən diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə bütün kollektivi adından minnətdarlığını bildirib.

Tədbirdə iştirak edən ictimaiyyət nümayəndələri də çıxış edərək dövlət Başçısının rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin mütərəqqi islahatlar aparılmaqla təkmilləşdiyini, səlahiyyətlərinin xeyli genişləndiyini, cəmiyyətdə yeri və rolunun əhəmiyyətli dərəcədə artdığını vurğulayıb, ədliyyə orqanlarının qanunun aliliyinin və insan hüquqlarının qorunmasında, şəffaflığın və ictimai iştirakçılığın təmin olunmasında mühüm fəaliyyətini qeyd edib, ədliyyə işçilərinə xoş arzularını çatdırıblar.

Sonda xatirə şəkli çəkilib.

Ruslan MƏMMƏDƏLİYEV
RİHBA-nın Hüquq şöbəsinin məsləhətçisi

DAŞKƏSƏNLİ MƏKTƏBLİLƏR NÖVBƏTİ "ÖLKƏMİZİ TANIYAQ" MAARİFLƏNDİRİCİ TUR-AKSİYASINA QOŞULUBLAR

Dövlətimizin Başçısı cənab İlham Əliyevin tapşırığına əsasən təşkil olunan "Ölkəmizi tanıyaq" maarifləndirici tur layihəsi çərçivəsində növbəti ekskursiya 14-17 noyabr tarixlərində keçirilib. Həmin tur-aksiyaya daşkəsənli məktəblilər də qoşulub. Onlar Lənkəran-Astara-Masallı marşrutunun iştirakçıları olublar.

Rayon Heydər Əliyev Mərkəzində təşkil olunmuş tur-aksiyanın təntənəli yolasalma mərasimində Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Namiq Süleymanov, Təhsil Şöbəsinin işçiləri, idarə, müəssisə rəhbərləri, müəllimlər, valideynlər, rayon ictimaiyyəti nümayəndələri və KİV mənsubları iştirak ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının müavini Namiq Süleymanov yolasalma mərasimində çıxış edib. O, çıxışında deyib:

- "Ölkəmizi tanıyaq" devizi altında keçirilən maarifləndirici tur-aksiyalar gözəl ənənə halı almışdır.

Artıq beşinci ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdləri üçün Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyalar təşkil olunur. Ötən dövrlər ərzində 7 istiqamət üzrə 9 tur-aksiya təşkil edilmiş və ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda ümumilikdə 20 min 254 nəfər iştirak etmişdir. Noyabr ayının 14-17-si və 18-21-i tarixlərini əhatə edəcək növbəti 10-cu tur-aksiyada isə 4 istiqamət üzrə 76 şəhər və rayondan 3 min 190 nəfərin iştirakı nəzərdə tutulmuşdur ki, bununla da iştirakçıların sayı 23 min 444 nəfərə çatacaqdır.

Həmin turlara Daşkəsən rayon ümumtəhsil məktəblərinin şagirdləri də böyük həvəslə qoşulmuş, onlar ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri ilə tanış olmuş, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətlərini, möhtərəm Prezident cənab İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafını, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən simasını əyani şəkildə görmüşlər.

Bu gün tam qətiyyətlə deyilməlidir ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızın bütün sahələrində parlaq uğurlar, qələbələr qazanılmışdır. Azərbaycan kimi gənc bir ölkənin iqtisadi cəhətdən dünyada güclənməsi və onun ictimai-siyasi sabitlik nümunəsinə çevrilməsi müstəqil dövlətimizin dünyada baş verən siyasi gərginliklər kontekstində ən böyük uğurudur.

İndi Azərbaycan tək Cənubi Qafqazın deyil, bütövlükdə yerləşdiyi regionun ən nüfuzlu söz sahiblərindən biridir. Regionda reallaşdırılan böyük transmilli layihələrdə Azərbaycanın öz payı və öz sözü vardır. Azərbaycanın siyasi çəkisi artıq o həddə yüksəlib ki, hazırda o, nəhəng dövlətlər arasında baş verən siyasi anlaşılmazlıqların nizamlanmasında vasitəçilik missiyasını yerinə yetirir.

Ölkəmizin iqtisadi müstəqilliyi onun digər sahələrdəki uğurlarının da əsasında dayanır.

Azərbaycan dünya səviyyəli beynəlxalq tədbirlərə və mötəbər idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi edir. Biz artıq dünya miqyasında idman ölkəsi kimi tanınırıq. Nüfuzlu beynəlxalq turnirlərdə, idman yarışlarında, dünya və Avropa çempionatlarında, eləcə də olimpiadalarda yüksək yerlər tutan azərbaycanlı idmançılar öz nailiyyətləri ilə bunu təsdiqləyirlər.

Ölkəmizin uğurla ev sahibliyi etdiyi nüfuzlu idman tədbirləri sırasında 2015-ci ildə Bakıda və Mingəçevirdə keçirilən I Avropa Oyunlarını, 2017-ci ildə paytaxtımızda təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarını, eləcə də "Formula-1" yarışlarını misal göstərmək olar. Bütün bunlara möhtərəm Prezident cənab İlham Əliyevin idmana göstərdiyi dövlət qayğısı sayəsində nail olunub.

Azərbaycandakı mövcud ictimai-siyasi sabitlik lazımınca dəyərləndirilməlidir. Başa düşməliyik ki, ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident çox hörmətli Mehriban xanım Əliyevanın gərgin səyləri hesabına yaradılmış bu ictimai-siyasi sabitlik ailələrimizin, gənclər və uşaqlarımızın təhlükəsiz və xoşbəxt həyatının, müstəqil Azərbaycan dövlətinin isə hərtərəfli inkişafının əsas təminatıdır.

Tur-aksiyanın proqramı təkcə bölgələrin sosial-iqtisadi, tarixi-mədəni həyatı ilə tanışlıqla bitmir. Siz şagirdlərə həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, o cümlədən 1994-cü ilin mayın 12-dən qüvvədə olan atəşkəsə məhəl qoymayan mənfur Ermənistan silahlı qüvvələrinin mövqelərimizə daim atəş açması, dinc əhalini, yaşayış yerlərini güllərbaran etməsi barədə ətraflı məlumat veriləcəkdir.

Müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Ulu Öndərin ordu ilə bağlı müəyyən etdiyi strategiya bu gün onun layiqli siyasi davamçısı möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən əzmlə həyata keçirilir. Ali Baş Komandan cənab İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü iqtisadiyyatına və modern ordusuna sahibdir. 2016-cı ilin aprel döyüşlərində əldə olunmuş uğurlar, "Böyük Qayıdışın" ilk müjdəsi olan Cocuq Mərcanlı kəndinin yenidən qurulması hər birimizi qürurlandırır. Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, qüdrətini, qələbə əzmini, xalq ilə ordu arasında birliyi nümayiş etdirdi. Bütün dünya Azərbaycan xalqında ruh yüksəkliyinin, vətənpərvərlik hissinin nə qədər yüksək olduğunu bir daha gördü. Möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin əzmi sayəsində gündən-günə daha da güclənən güclü Azərbaycan Ordusu qürur mənbəyimiz, fəxarət ünvanımızdır. Bu barədə məlumatlar siz məktəblilərin vətənpərvərlik ruhunu daha da yüksəldəcəkdir.

Ekskursiya zamanı sizlər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılacaqsınız. Diqqətə çatdırılacaqdır ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən dünyaşöhrətli Prezident cənab İlham Əliyevin iştirakı ilə 2017-ci ilin sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsinə dair saziş isə əfsanəvi "Yeni əsrin müqaviləsi" adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur. Beləliklə, yeni müqaviləyə görə, 2050-ci ilədək çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin sosial-iqtisadi inkişafını daha da sürətləndirəcəkdir. Bu yeni müqavilə, o cümlədən də TAP və TANAP layihələrinin uğurla icra olunması həm də xarici nüfuzlu tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını bir daha da göstərir.

İstifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı ölkəmiz üçün təkcə iqtisadi deyil, həm də böyük geostrateji əhəmiyyət daşıyır. Möhtərəm Prezident cənab İlham Əliyevin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, ölkəmizin tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri Azərbaycanın sosial-iqtisadi inkişafına mühüm töhfə verir. Şagirdlərimiz bütün bu layihələr barədə məlumatlandırılacaqlar.

Cari ilin sentyabrın 26-da Azərbaycanın üçüncü peyki olan "Azərspace-2" peyki orbitə buraxılmışdır. Bu beynəlxalq əhəmiyyətli layihənin həyata keçirilməsi münasibətilə Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyev xalqımızı təbrik edərək demişdir: "Son beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxara bilmişdir. Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir. Bizim artıq 3 peykimiz var: "Azərspace 1" telekommunikasiya peyki, "Azərsky" müşahidə peyki və "Azərspace 2". Bildiyiniz kimi, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd edilir. Mənim Sərəncamımla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir... Biz "Azərspace 2" peykimizin orbitə çıxarılmasını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edirik. Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır".

2018-ci ilin doqquz ayı ərzində də ölkəmizin beynəlxalq aləmdə nüfuzu artmışdır. Belə ki, möhtərəm Prezident cənab İlham Əliyev 12 xarici ölkəyə səfər etmiş və 15 dövlət və hökumət başçısı Azərbaycana gəlmişdir. Xüsusilə qeyd olunmalıdır ki, 2018-ci ilin avqustun 12-də Aktauda Beşinci zirvə toplantısında Xəzər dənizinin hüquqi statusuna dair Xəzəryanı beş ölkə tərəfindən Azərbaycanın da milli maraqlarının əksini tapdığı Konvensiya qəbul edilmişdir. Bu əlamətdar tarixi sənəd ölkəmizin müstəqilliyinə və Xəzər dənizində suveren hüquqlarının təsbitində əhəmiyyətli dərəcədə əlamətdardır.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident çox hörmətli Mehriban xanım Əliyevanın təhsilin, səhiyyənin, mədəniyyətin, idmanın inkişafına, ekologiyanın qorunmasına diqqəti, hər il ölkə vətəndaşlarının pulsuz tibbi müayinələrə cəlb olunması, şəhid və əlil ailələrinə, qaçın və məcburi köçkünlərə, aztəminatlı ailələrə, internat və qocalar evlərində yaşayanlara daimi qayğısı böyük məmnunluq hissi ilə qarşılanır.

Rayonumuzdan "Ölkəmizi tanıyaq" devizi altında keçirilən maarifləndirici turlara şagirdlərin yola salınması və onların qarşılanması hər zaman Rayon İcra Hakimiyyəti rəhbərliyinin, Təhsil Şöbəsi işçilərinin, müəllimlərin, valideynlərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə böyük ruh yüksəkliyi və təntənəli surətdə keçirilir. Bu gün də həmin ənənəyə uyğun olaraq 20 nəfər şagirdimizi növbəti 10-cu tur aksiyaya təntənəli surətdə yola salırıq.

Sizlər növbəti "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində Azərbaycanın cənub bölgəsinin cənnət guşələri olan Lənkəran-Astara-Masallı marşrutunun iştirakçıları olacaqsınız.

Ekskursiya tur çərçivəsində bölgənin adət-ənənələri, ləzzətli mətbəxi, təbiətinin gözəlliyi, Xan Lənkəranın "Nənələr" folklor ansamblı, zəngin meşələri, gözəl dənizi, qonaqpərvərliyi ilə daha yaxından tanış olmaq imkanı qazanacaqsınız.

Gedəcəyiniz rayonların keçmiş və müasir simasını əks etdirən tarix-diyarşünaslıq muzeyləri, qədim tarixi abidələri, gənclər mərkəzləri, Olimpiya kompleksləri, Bayraq meydanları, rəsm qalereyaları və digər obyektlərlə tanışlıq sizin dünyagörüşünüzdə silinməz izlər buraxacaqdır. Hər şeydən əvvəl unudulmamalıdır ki, "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası Dövlət Başçımız çox hörmətli cənab İlham Əliyevin siz gənc nəslə olan daimi diqqət və qayğısından irəli gəlir.

Sizlərə gedəcəyiniz cənub bölgəsində keçirilən tur-aksiyada uğurlar, bolbol xoş təəssüratlar və mənalı istirahət arzulayırıq.

Mərasimdə çıxış edən müəllimlər, valideynlər və ictimaiyyət nümayəndələri yaradılmış yüksək şəraitə görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirərək qeyd ediblər ki, ölkə rəhbərinin tapşırığı ilə həyata keçirilən belə tur-aksiyalar çərçivəsində şagirdlər ölkəmizin tarixini, adət-ənənələrini, uğurlarını dərindən öyrənmək imkanı qazanırlar. Bu da yeniyetmələrin sağlam vətənpərvər gənclər kimi yetişmələrində mühüm rol oynayır.

Ulu Öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidə kompleksi qarşısına tər güllər düzən 22 nəfərdən ibarət qrup xüsusi avtobusla Lənkəran şəhərinə yola düşüblər.

DAŞKƏSƏNLİ MƏKTƏBLİLƏR "ÖLKƏMİZİ TANIYAQ" MAARİFLƏNDİRİCİ TUR-AKSİYASINDAN ZƏNGİN TƏƏSSÜRATLARLA QAYIDIBLAR

Noyabrın 17-də Lənkəran, Astara və Masallı rayonları ilə yaxından tanış olan daşkəsənli məktəblilər geri qayıdıblar. Məktəblilər xüsusi ayrılmış avtobusla Ulu Öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidə kompleksi qarşısına gəliblər.

İştirakçıları Rayon İcra Hakimiyyətinin, Təhsil şöbəsinin, rayon ictimaiyyətinin nümayəndələri və valideynlər qarşılayıb. Qarşılanma mərasimində iştirak edənlər şagirdlərin səfər təəssüratlarını öyrənib, onlara gələcək təhsillərində uğurlar arzulayıblar.

9-11-ci sinif şagirdləri və onların müəllimlərində bölgənin tarixi, mədəniyyəti, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri barədə dolğun təsəvvür yaranıb, rayonların inkişafını öz gözləri ilə görüblər. Belə ki, məktəblilər cənub bölgəsindəki abidələri, muzeyləri ziyarət edərkən ölkəmizin tarixi, mədəniyyəti barədə çox şey öyrəndiklərini bildiriblər. Lənkəranda "Həzi Aslanovun ev muzeyi", "Qoşa qala qapıları", "Mayak" binası, "Xan sarayı", Astarada "Çay fabriki", Masallıda "Tarix-Diyarşünaslıq Muzeyi" və "Asan Həyat kompleksi" ilə tanışlığın yaddaşlarından heç vaxt silinməyəcəyini deyiblər. "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının Dövlət Başçımız çox hörmətli cənab İlham Əliyevin gənc nəslə olan daimi diqqət və qayğısından irəli gəldiyini vurğulayıblar.

Müəllimlər, şagirdlər və ictimaiyyət nümayəndləri bu layihənin yüksək səviyyədə həyata keçirilməsinə görə ölkə Prezidentinə dərin minnətdarlıqlarını bildiriblər.

Elmar Əliyev
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

DAŞKƏSƏNDƏ "ZAMAN VƏ LİDER" FİLMİNİN NÜMAYİŞİ OLUB

Oktyabrın 20-də Daşkəsən Rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu Daşkəsən Rayon İcra Hakimiyyəti ilə birgə "Müasir Azərbaycan dövlətinin banisi" mövzusunda mühazirə təşkil edib. Mühazirədə tarix üzrə fəlsəfə doktoru Mahir Qəribov, ictimaiyyət nümayəndələri - ağsaqqallar, ziyalılar və gənclər iştirak ediblər.

Tədbiri Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçisi Elmar Əliyev açaraq Ümummilli Lider Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanda yaranan sabitlik, xalqın dövlətə inamı, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi barədə məlumat verib.

Bilik Fondunun Daşkəsən rayonu üzrə nümayəndəsi Daşkəsən şəhər A.Mürsəlov adına 2 nömrəli tam orta məktəbin direktoru Aybəniz Vəliyeva Ulu Öndər Heydər Əliyevin banisi olduğu Azərbaycançılıq ideologiyasının və möhtərəm Prezident cənab İlham Əliyevin apardığı uğurlu dövlət siyasətinin prioritet istiqamətlərinin mahiyyətinin əhaliyə çatdırılmasında Fondun apardığı maarifləndirici işlərin əhəmiyyətindən danışıb.

Rayon Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova isə qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Liderinin həyat və fəaliyyətinin öyrənilməsi, Ulu Öndərin irsinin yaşadılması və yeni nəsil arasında təbliği Mərkəzin əsas fəaliyyət istiqamətini təşkil edir. O bildirib ki, istər sovet, istərsə də müstəqillik illərində hakimiyyətdə olduğu dövrdə Azərbaycanın inkişafı Heydər Əliyev üçün əsas məsələlərdən biri olub. Bu gün müasir Azərbaycan dünyada nümunəvi ölkə kimi tanınır.

Fondun Lektorlar Qrupunun üzvü, tarix üzrə fəlsəfə doktoru Mahir Qəribov "Müasir Azərbaycan dövlətinin banisi" mövzusunda mühazirə ilə çıxış edərək dövlətçiliyimizin qorunub saxlanmasında və Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasında Ümummilli Liderin xidmətləri barədə ətraflı məlumat verib, Heydər Əliyevin zəngin irsinin gənclər tərəfindən öyrənilməsinin zəruriliyini vurğulayıb.

Sonda Ümummilli Lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş, Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən "Zaman və Lider" filminin nümayişi olub.

Vüqar MƏMMƏDOV
RİHBA-nın İnformasiya təminatı və təhlil sektorunun müdiri

DAŞKƏSƏNDƏ "DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ" MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ MARAQLA QARŞILANIB

Oktyabrın 11-12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Daşkəsən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Daşkəsəndə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda ikigünlük seminar-müşavirə öz işinə başlayıb.

Hüquq-mühafizə orqanları, din xadimləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni giriş sözü ilə açan Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının müavini - Sosial-iqtisadi inkişaf şöbəsinin müdiri Cavanşir Qocayev rayondakı dini durum və dini icmanın fəaliyyəti barədə ətraflı məlumat verib.

Çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Elmar Əliyev isə bildirib ki, Dövlət Komitəsinin dini maarifləndirmə istiqamətində təşkil etdiyi tədbirlər gənc nəslin yad dini ideologiyaların təsirindən qorunmasında, eləcə də onların düzgün dini bilgilərlə məlumatlandırılmasında əhəmiyyətli rol oynayır.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlərimizin önəminə toxunub. Dövlət tərəfindən milli-mənəvi dəyərlərimizə göstərilən yüksək qayğıdan danışan Səyyad Salahlı bütün sahələrdə olduğu kimi, dəyərlərimizin qorunması və bərpa edilməsi istiqamətində əməli tədbirlər həyata keçirildiyini diqqətə çatdırıb. DQİDK sədrinin birinci müavini milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması istiqamətində görülən işlərdən bəhs edərək son illər möhtərəm Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə bərpa edilən məscidlər, ziyarətgahlar barədə söhbət açıb. Səyyad Salahlı Dövlət Başçısının Fərmanı ilə yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun milli-mənəvi dəyərlərin qorunması və inkişafına dəyərli töhfələr verəcəyinə əminliyini ifadə edib.

Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Cahandar Əlifzadə dini radikalizmin yaranma səbəblərindən söhbət açıb. Qeyd edib ki, radikal ideologiya daşıyıcılarının əsas hədəfi hər zaman gənclər olublar. Buna görə də, xüsusilə gənclər elmi biliklərini artırmaqla yanaşı, mötəbər mənbələrdən yararlanaraq təməl dini bilgilərə yiyələnməyə çalışmalıdırlar. Cahandar Əlifzadə dini radikal qrupların təbliğat metodlarından da bəhs edib.

Gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirənin ikinci günündə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş olunub.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, kitablar paylanıb.

Elmar ƏLİYEV
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

DAŞKƏSƏNDƏ ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ İŞGÜZAR FORUM TƏŞKİL EDİB

Oktyabrın 2-də Daşkəsən rayon Heydər Əliyev Mərkəzində Əmlak Məsələləri Dövlət Komitəsi Daşkəsən Rayon İcra Hakimiyyəti ilə birgə "Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti tədbirlərinin səmərəliliyinin artırılması məqsədi ilə yerli icra hakimiyyəti orqanının və bələdiyyələrin nümayəndələrinin, habelə fiziki və hüquqi şəxslərin maarifləndirilməsi mövzusunda" İşgüzar Forum keçirib.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsini tənzimləyən normativ hüquqi aktlar, onların tələbləri, bu tələblərin pozulması halları və onları yaradan səbəb və şərait barədə Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin rəis müavini Rafiq Süleymanovun məruzəsi dinlənilib. Məruzəçi bildirib ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 7 mart tarixli 818 nömrəli Fərmanının 2-ci hissəsinin 2.8-ci bəndi ilə torpaqlardan istifadəyə və onun mühafizəsinə dövlət nəzarəti tədbirlərinin gücləndirilməsini, aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsini təmin etmək Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılmışdır. Azərbaycan Respublikasının torpaq qanunvericiliyinin pozulması halları ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsinin müvafiq strukturları tərəfindən torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti qaydasında ötən dövr ərzində 3138 şəxs inzibati məsuliyyətə cəlb olunaraq barələrində inzibati protokol tərtib edilmiş və həmin şəxslərə 2,1 mln. manat məbləğində cərimə tətbiq olunmuşdur. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən torpaq sahələrindən, o cümlədən kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin səmərəli istifadə olunması və mühafizəsi məqsədilə aidiyyəti üzrə göstəriş verilməsi barədə Nazirlər Kabinetinə mütəmadi olaraq məktublarla müraciət edilir. Torpaq sahələrinin kateqoriyalarının və ya məqsədli təyinatlarının dəyişdirilməsi ilə bağlı vəsatət qaldırılarkən Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli qərarı ilə təsdiq edilmiş "Torpakların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın tələblərinə riayət edilməsi, bu məqsədlə bələdiyyə orqanları, hüquqi və fiziki şəxslərlə maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin təmin edilməsi Nazirlər Kabinetinin 2017-ci il tarixli 31 yanvar tarixli 25/3-4 nömrəli məktubu ilə rayon (şəhər) icra hakimiyyətlərinə tapşırılmışdır.

Rafiq Süleymanov məruzəsində həmin qaydalarla müəyyən edilmiş torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi əsasları haqqında da geniş məlumat vermişdir. Bildirmişdir ki, Azərbaycan Respublikasının 2016-cı il 5 aprel tarixli, 185-VQD nömrəli Qanununa əsasən Torpaq Məcəlləsinin tələblərini pozmuş şəxslər Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrinə uyğun olaraq məsuliyyət daşıyırlar. Torpaqların istehsalat və məişət tullantıları ilə zibilləndirilməsinə və ya kimyəvi, çirkab suları ilə çirkləndirilməsinə, yaxud bakterial-parazitik və zərərli karantin orqanizmləri ilə yoluxdurulmasına görə, torpaqların münbit qatının korlanmasına görə, icarəyə verilmiş torpaqların məqsədli təyinatını dəyişdirmədən başqa məqsədlər üçün istifadəyə və digər qanun pozuntularına görə fiziki, vəzifəli və hüquqi şəxslər müxtəlif məbləğdə cərimə edilir. Torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edən Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrinin müvafiq maddələrinin sanksiyaları həddindən artıq sərtləşdirildiyindən, mümkün qədər az sayda şəxsin bu sanksiyalara məruz qalması baxımından onlarla torpaq qanunvericiliyinin tələbləri barədə müvafiq maarifləndirmə işlərinin aparılması qabaqlayıcı tədbirlərin görülməsi baxımından mühüm məsələlərdən hesab edilmişdir. "Magistral boru kəmərlərinin , körpülərin, hidrotexniki qurğuların və yüksəkgərginlikli elektrik hava xətlərinin mühafizəsinin gücləndirilməsinə dair bəzi tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 avqust tarixli 191 nömrəli Qərarı ilə neft və qaz boru kəmərlərinin, yüksəkgərginlikli elektrik hava xətlərinin, körpülərin və hidrotexniki qurğuların mühafizəsi, onların təhlükəsiz və etibarlı istismarı üçün normal şəraitin yaradılması və baş verə biləcək hadisələrin qarşısının alınması məqsədi ilə çay keçidlərinin yuxarı və aşağı axarları boyunca 500 metrlik məsafədə faydalı qazıntıların, partlayışların, torpaq qazma işlərinin aparılması, çay yatağı materiallarının çıxarılması üçün aidiyyəti icra hakimiyyəti orqanları tərəfindən torpaq sahələrinin ayrılması, lisenziya və icazələrin verilməsinin dayandırılması tapşırılmışdır.

Sonra mövzu ətrafında çıxışlar olmuş, müzakirələr keçirilmiş, tədbir iştirakçılarının suallarını cavablandırmışdır.

Aidə NAĞIYEVA
RİHBA-nın Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini

DAŞKƏSƏNDƏ FERMERLƏR ŞURASININ ÜZVLƏRİNİN İŞTİRAKI İLƏ MAARİFLƏNDİRİCİ TƏDBİR KEÇİRİLİB

Noyabrın 2-də Daşkəsəndə Fermerlər Şurasının üzvlərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib. Tədbirdə Bitki Mühafizə və Texniki Bitkilər üzrə Elmi Tədqiqat İnstitutunun, Daşkəsən Dövlət Aqrar İnkişaf Mərkəzinin və Kənd Təsərrüfatı Nazirliyinin, fermerlərin və digər qurumlarının əməkdaşları iştirak ediblər.

Daşkəsən DAİM-in direktoru Azər Hacıyev çıxış edərək ölkəmizdə kənd təsərrüfatı sahəsində aparılan aqrar islahatlar və son dövrlər əldə olunan yüksək nəticələr barədə ətraflı məlumat verib. O bütün rayonlarda olduğu kimi, Daşkəsəndə də kənd təsərrüfatı məhsullarının istehsalı üçün sahibkarlara hər cür şəraitin yaradıldığını və əvvəlki illərdən fərqli olaraq yüksək məhsuldarlıq əldə olunduğunu qeyd edib.

Azər Hacıyev dövlətin fermerlərə texnika, toxum, gübrə dəstəyi, subsidiyalar barədə ətraflı məlumatlar verib, subsidiya mexanizminin Daşkəsəndə fermerlərin fəaliyyəti üçün ciddi stimul olduğunu bildirib: "Fermerlərə dövlət səviyyəsində göstərilən bu cür diqqət və qayğıya cavab olaraq, biz öz işimizə tənqidi yanaşmalı, ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları istehsal etməyə çalışmalıyıq".

Bitki Mühafizə və Texniki Bitkilər üzrə Elmi Tədqiqat İnstitutunun elmi işlər üzrə direktor müavini Sahib Cabbarov taxılçılıq və bu sahənin inkişafı, aqrotexniki əməliyyatlar, zərərvericilər və xəstəliklər, toxumun səpinqabağı dərmanlanması və s. haqqında məruzə ilə çıxış edib.

Daşkəsənli sahibkarlar və fermerlər yekdilliklə belə bir təklif səsləndiriblər ki, dağlıq şəraitdə əkinçilik və heyvandarlığın inkişafı üçün güzəştli kredit şərtləri ilə kiçik həcmli texnikalar və avadanlıqlarla təminat ən vacib amildir.

Tədbirin sonunda istehsalçıları maraqlandıran suallar ətraflı cavablandırılıb, fermerlərə müvafiq tövsiyələr verilib.

Nüsrət SÜLEYMANOV
RİHBA-nın Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin baş məsləhətçisi

"MÜƏLLİMLƏR ARASINDA MÜASİR QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNİN TƏBLİĞİ"

Təhsil sahəsindəki mühüm yeniliklərdən biri də Təhsil Nazirliyinin təhsildə inkişaf və innovasiyalar üzrə qrant layihə müsabiqələrini keçirməsidir. Çox sevindirici haldır ki, bu layihədə Daşkəsən rayonunun müəllimləri də iştirak etmiş və 2 nəfər layihə qalibi olmuşdur.

Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar" üzrə 2-ci Qrant müsabiqəsi"nin fərdi kateqoriyası üzrə "Müəllimlər arasında müasir qiymətləndirmə vasitələrinin təbliği" layihəsinin qalibi Daşkəsən rayon İ. Nəsimi adına 1 nömrəli tam orta məktəbin riyaziyyat-informatika müəllimi İlhamə Zeynalzadə layihə işlərini Daşkəsəndə uğurla həyata keçirmişdir. Məqsədi müasir qiymətləndirmə vasitələrinin təkmilləşdirilməsi və tədris zamanı şagirdlərə düzgün tətbiq etməsinin müəllimlər və şagirdlər arasında təbliğidir.

Layihə çərçivəsində Daşkəsən rayon ümumtəhsil məktəblərində işləyən 20 nəfər riyaziyyat fənnini tədris edən müəllim təlimlərdə iştirak edib və müasir qiymətləndirmə ilə bağlı təlimləndirilib. Belə ki, 9-cu sinif şagirdlərinə imtahan zamanı açıq tipli sualları düzgün, meyarlara uyğun cavablandırılması yollarını izah etmək üçün Daşkəsən Rayon Təhsil Şöbəsinin dəstəyi ilə iştirakçı müəllimlərlə açıq dərslər təşkil edilib, müzakirələr və təhlillər aparılaraq müəllimlər və məktəblərarası əməkdaşlıq yaradılmışdır.

Bundan əlavə, 9-cu sinif şagirdləri üçün sınaqlar təşkil edilmişdir. 1-ci sınaq imtahanı oktyabrın 28-də 150 nəfər şagirdin iştirakı ilə, 2-ci sınaq imtahanı isə noyabrın 25-də 184 nəfər şagirdin iştirakı ilə keçirilmişdir. Meyarlara uyğun açıq tipli suallarla təşkil olunmuş sınaq imtahanları şagirdlərin imtahan qaydaları ilə tanış olmasına, imtahan nəticələrinin yüksəldilməsinə çox yaxşı təsir göstərmişdir.

Artıq layihə yekunlaşmaq üzrədir. Layihənin son tədbirində təlimdə iştirak edən müəllimlərə sertifikatların təqdim olunması və sınaq imtahanlarında yüksək nəticə göstərən şagirdlərə hədiyyələr verilməsi nəzərdə tutulub.

Ümid edirik ki, gələcək illərdə rayonumuz üçün təhsil sahəsində qrand layihə qaliblərinin sayı çoxalacaqdır.

Elmar ƏLİYEV
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI TƏRƏFİNDƏN 2018-Cİ İLİN DEKABR AYINDA YERLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULLARININ KEÇİRİLMƏSİ

Q R A F İ K İ

Sıra №-si	Qəbulların keçiriləcəyi yaşayış məntəqələrinin adı	Qəbulların keçiriləcəyi yer	Nəzərdə tutulan keçirilmə tarixi	Qəbulda RİHBA-dan iştirak etməsi nəzərdə tutulan məsul şəxslər
1.	Rəsullu kəndi	Kənd tam orta məktəbinin binası	05.12.2018-ci il saat 11:00	S.Əhmədov, E.Məmmədov
2.	Zağalı kəndi	Kənd tam orta məktəbinin binası	13.12.2018-ci il saat 11:00	M.Yolçuyev, V.Məmmədov
3.	Dardərə kəndi	Kənd ərazisində açıq havada	19.12.2018-ci il saat 11:00	S.Əhmədov, V.Məmmədov
4.	Quşçu körpüsü qəsəbəsi	Qəsəbə ümumi orta məktəbinin binası	26.12.2018-ci il saat 11:00	M.Yolçuyev, S.Əhmədov

QEYD: Qəbulda rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edəcəklər.

DAŞKƏSƏN RAYON PROKURORU TƏRƏFİNDƏN YERLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULLARININ HƏYATA KEÇİRİLMƏSİ

C Ə D V Ə L İ

Sıra №-si	Qəbulların keçiriləcəyi yaşayış məntəqələrinin adı	Qəbulun tarixi	Qəbulun keçiriləcəyi yer	Qəbulu həyata keçirən şəxs
1.	Almalı kəndi	08.12.2018-ci il saat 15:00	İcra nümayəndəliyinin inzibati binası	Prokuror
2.	Zivlən kəndi	22.12.2018-ci il saat 15:00	Kənd orta məktəbi	Prokuror

ELAN

Daşkəsən şəhər 20 Yanvar küçəsi bina 3, mənzil 2-nin Abbasov Sayad Məhəmməd oğlunun adına verilmiş 09.08.1994-cü il tarixli 652 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev başda omaqla Daşkəsən Rayon İcra Hakimiyyətinin kollektivi SHXÇDX-nin Daşkəsən rayon bölməsinin rəisi mayor Aqşin Xancanova

ANASI XANCANOVA XANIM ƏLİ QIZININ

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

***

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev başda omaqla Daşkəsən Rayon İcra Hakimiyyətinin kollektivi DSMF-nin Daşkəsən rayon şöbəsinin müdiri Malik Şükürova

ƏMİSİ QARAYEV İMDAD ŞÜKÜR OĞLUNUN

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

DAŞKƏSƏNDƏ "XƏMSƏ" MİLLİ İNTELLEKTUAL OYUNU ÜZRƏ YENİYETMƏLƏR ARASINDA VI AZƏRBAYCAN ÇEMPİONATININ RAYON SEÇİM TURU BAŞ TUTUB

Oktyabrın 30-da Daşkəsən rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 yanvar 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf Strategiyası"nın müvafiq bəndlərinə əsasən "Xəmsə" Milli İntellektual oyunu üzrə yeniyetmələr arasında VI Azərbaycan Çempionatının rayon seçim turu keçirilib.

Turniri giriş sözü ilə açan rayon Gənclər və İdman İdarənin rəisi Samir Həsənov ölkə rəhbəri möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən gənc nəslə göstərilən qayğıdan və respublikada dövlət gənclər siyasətinin uğurlu inkişafından danışaraq qeyd edib ki, çempionatın seçim turunun keçirilməsində məqsəd gənclərin intellektual səviyyəsini, dünyagörüşünü genişləndirmək, zehni inkişafını stimullaşdırmaq, onlar arasında biliklərin və elmin nüfuzunu artırmaq, asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etmək, eyni zamanda "Xəmsə" Milli İntellektual Oyunu üzrə yeniyetmələr arasında Azərbaycan Çempionatının Göygöl rayonunda keçiriləcək zona mərhələsinə vəsiqə qazanmaqdan ibarətdir.

Rayon seçim turunda yeniyetmələrdən ibarət 8 komanda, hər komandada 5 nəfər olmaqla, ümumilikdə 40 nəfər iştirakçı öz bilik və bacarıqlarını sınayıb.

Komandalardan Daşkəsən şəhər S.Vurğun adına 4 saylı tam orta məktəbin "Qələbə" komandası I, Bayan kənd M.Mustafayev adına tam orta məktəbin "Bayan" komandası II, Quşçu kənd Ə.İsmayılov adına tam orta məktəbin "Göyçə" komandası III yerə layiq görülüb. Daşkəsən şəhər S.Vurğun adına 4 saylı tam orta məktəbin "Qələbə" komandası ölkə çempionatının zona mərhələsində iştirak etmək hüququ qazanıb.

Qalib komandalar rayon Gənclər və İdman İdarəsinin diplomları ilə təltif ediliblər.

Sahib ƏHMƏDOV
RİHBA-nın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri

YENİYETMƏLƏR ARASINDA YUNAN-ROMA GÜLƏŞİ ÜZRƏ RAYON BİRİNCİLİYİ KEÇİRİLİB

04-05 noyabr tarixlərdə Daşkəsən rayon uşaq gənclər idman şahmat məktəbində 9 Noyabr - Dövlət Bayrağı gününə həsr olunmuş yeniyetmələr arasında Yunan-Roma güləşi üzrə rayon birinciliyi keçirilib.

Birinciliyin açılışında çıxış edən Daşkəsən rayon Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov 9 Noyabr - Dövlət Bayrağı günü münasibəti ilə təbriklərini çatdırdıqdan sonra iştirakçılara yarışın keçirilmə qaydası barədə məlumat verib, idmançılara müvəffəqiyyətlər arzulayıb.

Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə iki gün gərgin mübarizə şəraitində davam edən yarışda 13 çəki dərəcəsində ümumilikdə 55 nəfər iştirak edib. Yarışda I, II, III yerləri tutmuş idmançılar Rayon Gənclər və İdman idarəsi tərəfindən diplomlarla təltif olunublar.

Etibar VERDİYEV
Rayon Gənclər və İdman idarəsinin idman sahəsi üzrə baş məsləhətçisi

DAŞKƏSƏNLİ UŞAQLAR "GÖYÇƏK FATMANIN NAĞILI" TAMAŞASINI MARAQLA İZLƏYİBLƏR

Oktyabrın 27-də Daşkəsən rayon Mədəniyyət Mərkəzinin səhnəsində "Göyçək Fatmanın nağılı" əsəri əsasında hazırlanmış tamaşa oynanılıb.

C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrının yaradıcı kollektivinin ərsəyə gətirdiyi 2 seansda uğurla baş tutmuş tamaşaya balacalar və məktəblilər həvəslə gəliblər.

Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Namiq Süleymanov qeyd edib ki, teatr truppalarının rayonda tamaşalar verməsinə hər zaman dəstək verilir.

N.Süleymanov onu da vurğulayıb ki, gənc nəslin vətənpərvər ruhda yetişməsi, intellektual şüurun formalaşması, asudə vaxtın səmərəli təşkili və teatr sahəsinə marağın artırılması, o cümlədən teatr mədəniyyətinin təbliğ olunması məqsədi ilə yaradıcı kollektivlərin çıxışları Daşkəsəndə mütəmadi olaraq təşkil olunur və tamaşalar anşlaqla keçir.

Gəncə Dövlət Dram Teatrının direktoru Əli Qasımov Daşkəsəndə teatra rağbətin və tələbatın böyük olduğunu bildirib. Teatrın rəhbəri bütün kollektivi adından Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevə tamaşaların təşkilinə hər zaman verdiyi dəstəyə, yaradılan şəraitə görə minnətdarlığını ifadə edib.

Balacalar tərəfindən sürəkli alqışlarla qarşılanan səhnə əsərinin baş rejissoru İradə Gözəlova, quruluşçu rejissoru Şəbnur Allahverdili, quruluşçu rəssamı Vahab Cəfərov və musiqi tərtibatçısı Tünzalə Mustafayevadır.

Elmar Əliyev
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

Baş redaktor: Elmar Əliyev

Telefon: (055) 803-03-17
(022) 215-52-83

Redaksiyanın ünvanı:
Daşkəsən şəhəri, H.Əliyev prospekti 2. "Daşkəsən" qəzetinin hesab nömrəsi: Kapital Bank Daşkəsən filialı h/h 33080019448400214184, VÖEN 4900026031, İndeks 66896 Lisenziya № 022637

Qəzet 1999-cu ildən Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Qeydiyyat № B437 Lisenziya seriya AB №022637.

Qəzet "Daşkəsən" qəzetinin kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı"nın mətbəəsində çap olunmuşdur.

Sifariş: 3027
Tiraj: 500